QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 154 (6354) 28 avqust 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına qayğı dövlətin prioritet vəzifəsidir



Bax 2

## Birinci vitse-prezident Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı İnstaqram hesabında etdiyi paylaşımda deyilir:

"Hörmətli bacılar və qardaşlar!

Əziz dostlar!

Ad günüm münasibətilə təbriklərə, gözəl və xoş arzulara görə sizə səmimi-qəlbdən təşəkkür edirəm. Sizin diqqətiniz, qayğı və dəstəyiniz mənim üçün çox dəyərlidir. Sevginizə, səmimiyyətinizə, hörmətinizə və inamınıza görə çox sağ olun. Dərindən hiss etdiyim, məni ilhamlandıran və hər zaman mənə kömək olan qəlblərinizin istisini mənə bəxş etdiyiniz üçün hər birinizə minnətdaram. Ulu Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik diləyirəm. Qoy Uca Allah Azərbaycan xalqını və bizim doğma Vətənimizi qorusun!".

Sevgilərlə,

Sizin MEHRİBAN".

## "Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinə dövlət qayğısı: Problemlər və onların həlli yolları" mövzusunda seminar keçirilib

Bax 4

Avqustun 27-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinə dövlət...



## "Təəssüf ki, Ermənistan XİN-i hələ də "yaddaş pozğunluğu" sindromundan əziyyət çəkir"



Bax 4

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva UNESCO-nun missiyasının həyata keçirilməsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin...

## Baş nazirin müavini Əli Əhmədov ilə Gürcüstan nümayəndə heyəti arasında görüş keçirilib



Bax 6

Avqustun 27-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib...



### Türk professor: Ən sağlam insan onlardır ki...

### Baş infeksionist: Payız-qış mövsümündə epidemioloji vəziyyət daha da ağırlaşa bilər



Hazırda bütün dünyada COVID-19 infeksiyası ilə əlaqədar vəziyyət çox gərgindir, ayrı-ayrı ölkələrdə yeni antirekordlar qeydə alınır. Virusun mutant ştammlarının - "Alfa", "Beta",...

Bax 12

### "Ermənilər üçün bir yol var, o da..."

Bax 13






### Paşinyan Türkiyəyə mesaj göndərdi - Biz hər şeyə hazırıq

### Regionun ən böyük "manea mərkəzi"



Bax 10

### Azərbaycanı regionun siyasi və iqtisadi güc mərkəzinə çevirən siyasət



Bax 15

### Kriştiano Ronaldo "Mançester Yunayted"ə keçdi!



Bax 16

# Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına qayğı dövlətin prioritet vəzifəsidir



Prezident İlham Əliyevin avqustun 25-də imzaladığı "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncamda bildirilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik): 1.1. Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərin, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərinin mənzillə təmin edilməsini həyata keçirsin; 1.2. bu Sərəncamın icrası ilə bağlı görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi olaraq məlumat versin; 1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin. 2.Müəyyən edilsin ki, bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulan şəxslərin mənzillə təmin edilməsi bu məqsədlə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nazirliyin balansına verdiyi və ya Nazirliyin həmin məqsəd üçün əldə etdiyi mənzillər hesabına həyata keçirilir.

3. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu Nazirliyin müraciəti əsasında bu Sərəncamın 1.1-ci bəndində göstərilən məqsəd üçün balansında olan mənzillərin Fondun mənfəəti hesabına həmin Nazirliyin balansına verilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

### "Bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir"

Bəli, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun 44 gün davam zəfər yürüşü siyasi müstəvidə qazanılan qələbə ilə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi, bununla da beynəlxalq hüququn norma və prinsipləri, tarixi ədalət bərpa edildi. Bu tarixi qələbə unudulmaz şəhidlərimizin, qazilərimizin qanı, canı, mərdliyi ilə savaş meydanında qazanıldı. Buna görə də hər bizimiz torpaqlarımızın azad olunmasını bizə qələbə sevinci yaşadan şəhidlərimizə, qazilərimizə borcluyuq.

Bu gün Azərbaycanda şəhid ailələrinə həm dövlətin, həm də cəmiyyətin xüsusi diqqət və qayğısı var və bu diqqət və qayğının ən bariz nümunəsini Prezident İlham Əliyev göstərir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəmətli qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, hamılıqla təqdirəlayiq hal kimi qiymətləndirilir. Elə bunların nəticəsidir ki, şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı bir daha bunun şahidi olduq. Prezident İlham Əliyev hərbçilərlə görüşü zamanı bildirmişdi: "Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib".

### "Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar"

"Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dövlət başçısı dediyi sözə düz 18 ildir ki, əməl edir. Prezidentlik fəaliyyəti dövrünün 18 illi ərzində Azərbaycan Prezidenti sözü ilə əməli üst-üstə düşüb və 9 ay bundan öncə hərbçilərlə görüşü zamanı dediyi sözün ilk gündən əməl olunduğunun şahididir xalqımız.

Bəli, bax, budur əsl siyasət, hər bir azərbaycanlının Prezidenti olmaq. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"- deyən dövlət başçısı İlham Əliyevin ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

### Göstərilən qayğı: faktlar, rəqəmlər...

Bəli, bu gün Azərbaycan dövləti 2006-cı ildən Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının yaşa görə əmək pensiyalarının baza hissəsinin üzərinə müvafiq məbləğlərdə əlavələr hesablayır, 2008-ci ildən Böyük Vətən müharibəsi əlillərinə Azərbaycan Prezidentinin təqaüdlərinin təyin olunmasına başlanılıb. Həmçinin, Böyük Vətən müharibəsi əlillərinin dövlət hesabına və növbəlilik qaydasında minik avtomobili və mənzillə təminatı işləri də həyata keçirilir. Xatırladaq ki, Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq nümunələri göstərib. Tarixin ən qanlı müharibəsində Azərbaycanın 640 mindən çox sakini iştirak edib. Onların təxminən yarısı döyüşlərdə həlak olub. Döyüşlərdə göstərdikləri igidliyə görə ölkəmizin 130-dək vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Müharibə vaxtı ön cəbhədə göstərdikləri şücaətə görə 176 min nəfər azərbaycanlı döyüşçü, arxa cəbhədə isə 250 min nəfər SSRİ-nin orden və medalları ilə təltif olunub. Bundan əlavə, 30 nəfər müharibə iştirakçısı 1-ci, 2-ci və 3-cü dərəcəli "Şöhrət" ordeni ilə təltif edilib.

Böyük Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının artırılmasını zəruri edən, sadəcə onların müharibə iştirakçısı və ya əlil olması, yaxud göstərdikləri şücaət deyil. Həm də sağ qalan müharibə iştirakçılarının ahıl yaşda olmasıdır. Buna görə də onlara həm də Azərbaycanın ən yaşlı insanları kimi xüsusi diqqət göstərilir. Böyük Vətən müharibəsi iştirakçılarının mövcud vəziyyətini nəzərə alan Azərbaycan dövləti onlara hərtərəfli diqqət ayırır: həm onların yaşa görə pensiyalarına əlavələr var, həm prezident təqaüdü alırlar, əlillər mənzil və avtomobillə təmin edilir, həm də onların digər sosial qayğıları dövlət hesabına həll olunur.

### Bu il şəhid ailələri və müharibə əlillərinə 1300 mənzil və fərdi ev verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" yeni Sərəncamı bu kateqoriyadan olan şəxslərə dövlət başçısı tərəfindən daha bir yüksək qayğının təzahürüdür. Qeyd edək ki, dövlət başçısının 30 dekabr 2020-ci il tarixli Fərmanına əsasən Vətən Müharibəsi Qəhrəmanlarına (ölümündən sonra bu ad verildikdə və ya həmin ad verilmiş şəxs sonradan vəfat etdikdə, həmin şəxsin ailə üzvlərinə) dövlət qayğısını artırmaq məqsədilə onlar üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Təqaüdün aylıq məbləği 2000 manat müəyyən olunub.

Şəhidlərimizin ailə üzvlərinin, müharibə qazilərinin çevik və genişmiqyaslı sosial dəstək paketi ilə əhatə olunması dövlətimizin sosial siyasətinin prioritetlərindən biridir. Dəstək istiqamətlərindən biri kimi, şəhid ailələrinin, müharibə əlillərinin mənzillə və fərdi evlə təminatı sahəsində mühüm addımlar atılır. Ötən dövrdə 10 500 şəhid ailəsi və müharibə əlilli mənzil və fərdi evlə təmin edilib. 2021-ci ildə də 3 minədək mənzil və fərdi evin bu kateqoriyalardan olan vətəndaşlara verilməsi nəzərdə tutulub ki, onlardan artıq 1300 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib.

### Ulu Öndər Heydər Əliyev: "Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur"

Bəli, ilk gündən hər şeyin bünövrəsi Ulu Öndərimiz Heylər Əliyev tərəfindən qoyulub. Məhz buna görədir ki, Azərbaycanda müstəqil dövlət quruculuğu kursu digər ölkələr üçün nümunəvi modeldir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə demokratik, şəffaf islahatlar siyasətini dönmədən həyata keçirməkdədir. Həmin siyasətin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, veteranlar bizim qızıl fondumuzdur: "Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur."

Bəli, bu gün bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycan sosial dövlət modelini uğurlu tətbiq edən ölkələr sırasındadır. Bir sözlə, bütün bunlar onu göstərir ki, şəhid ailələrinə və qazilərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir və Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq. Dövlət başçımız bunu son 18 illik Prezidentlik fəaliyyəti müddətində aydın şəkildə göstərib: "Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam",- deyən Azərbaycan Prezidenti, hər kəsin, o cümlədən şəhid ailələrinə diqqət və qayğının ən bariz nümunəsini son 18 ildə göstərib və bundan sonra da göstərəcəyinə Azərbaycan xalqı inanır və şahidlik edir.

**RƏFİQƏ KAMALQIZI**

# Mehriban xanım Əliyevanın doğum günü münasibətilə dünya mediasında materiallar dərc olunub

***Yunanıstanın "Good.net" xəbər portalında, Albaniyanın "Panorama" xəbər portalı və eyni adlı qəzetində, "Balkan web" nəşrində və "Psikologjiya" online jurnalında "Mehriban Əliyeva: Odlar Yurdunun xoşməramlı səfiri" sərlövhəli məqalə dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan müstəqilliyinin ilk illərində həm ölkə daxili, həm də xaricində bir sıra çətinliklərlə üzləşdiyi, ənənəvi ticarət əlaqələrinin pozulması nəticəsində ölkənin istehsal gücünün əhəmiyyətli dərəcədə azaldığı və Qarabağ münaqişəsi nəticəsində Ermənistanın Azərbaycanın 20 faiz torpağını işğal etdiyi barədə məlumat verilib. Bildirilib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin işğaldan azad edilməsi və bir milyondan çox qaçqın və məcburi köçkünün əzəli torpaqlarına qayıdışı ilə bağlı 1993-cü ilin ortalarından etibarən Azərbaycanda düşünülmüş siyasi, iqtisadi və demokratik islahatlar aparılıb, regional və beynəlxalq layihələr həyata keçirilib.

Məqalədə Azərbaycanın multikulturalizm ənənələrinin dünyaya tanıdılması, mədəniyyətlər və dinlər arasında dialoqun təşviq edilməsi ilə bağlı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Azərbaycan xalqının tarixi, mədəniyyəti, adət və ənənələrinin qorunması və dünya mədəni irs siyahısına daxil edilməsi ilə bağlı görülmüş işlər barədə geniş məlumat verilib. Bildirilib ki, Birinci vitse-prezidentin səyi nəticəsində "Novruz bayramı", "İçərişəhər" memarlıq abidəsi, "Muğam", "Aşıq" və "Tar" UNESCO-nun maddi və qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Həmçinin məqalədə qeyd olunub ki, 2008-ci ildə Azərbaycan Prezidentinin təşəbbüsü ilə baş tutan "Bakı prosesi" çərçivəsində Mehriban Əliyevanın həyata keçirdiyi müxtəlif layihələr vasitəsilə xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlıq inkişaf etdirilib. Bildirilib ki, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri, bəşəri və mədəni dəyərlərə böyük hörmətlə yanaşan Azərbaycanın birinci xanımı şeirə, sənətə və mədəniyyətə sevgi və rəğbətlə yanaşan bir ailədə dünyaya göz açaraq böyüyüb.

Məqalədə Mehriban xanım Əliyevanın xeyriyyəçilik fəaliyyətinə 1995-ci ildə təsis etdiyi "Azərbaycanın Dostları" Fondu vasitəsilə başladığı və 1996-cı ildə Azərbaycanın milli və mədəni irsini təbliğ məqsədilə üç dildə nəşr olunan "Azərbaycan - İrs" jurnalını təsis etdiyi barədə bildirilib. Diqqətə çatdırılıb ki, Birinci vitse-prezidentin təşəbbüsü ilə ölkədəki sosial və mədəni infrastruktur yenidən qurulub, "Muğam" mərkəzi, konsert salonları və musiqi məktəbləri bərpa edilib, hər yay "Qəbələ" musiqi festivalı təşkil olunur. 2002-ci ildən Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik etdiyi, bu idman növünün inkişafı üçün fəaliyyəti barədə məlumat verilib.

Mehriban Əliyevanın 2004-cü ildən etibarən "Heydər Əliyev Fondun"a rəhbərlik etdiyi, ölkə daxilində və xaricində təhsil, səhiyyə, mədəniyyət, idman, elm, texnologiya, ətraf mühit və sosial məsələləri əhatə edən bir sıra layihələr icra etdiyi vurğulanıb, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası ilə bağlı mühüm proqramlar icra edildiyi bildirilib.

Birinci vitse-prezidentin təşəbbüsü ilə "Heydər Əliyev Fondu" tərəfindən Avropanın bir sıra ölkələrində yerləşən qədim Roma dövrünə aid "BuonPastor", "Orfeo", "Noe", "CastaSusanna" mozaikaları, "Saint Marceline" və "Pietro" katakombaları, "Strasburq" katedrali, Luvr Muzeyində "İslam Mədəniyyəti Mərkəzi" və Versal Sarayı (Fransa), Trapezitsa Qoruğu (Bolqarıstan) təmir olunduğu və onun fəaliyyətinin Roma Papası Francis tərəfindən qiymətləndirildiyi bildirilib. Yazıda müsəlman ölkəsi tərəfindən xristian ölkələrində dini-mədəni abidələrin bərpa olunması xüsusi olaraq vurğulanıb.

Məqalədə Mehriban Əliyevanın həyata keçirdiyi bu nəcib işlər Fransanın "Şərəf Legionu" ordeni, Pakistanın yüksək dərəcəli "Hilal-ePakistan" ordeni, Serbiyanın dövlət mükafatı, Rusiya Beynəlxalq Xeyriyyə Təşkilatının "RubyCross", Ümumdünya Səhiyyə Təşkilatının mükafatı, Avropa Olimpiya Komitəsinin yüksək ordeni, Beynəlxalq "GoldenHeart" mükafatı, Polşanın yüksək dövlət mükafatı, UNESCO-nun "GoldenMozart" medalı ilə mükafatlandırıldığı qeyd olunub. Birinci xanımın, həmçinin Yunanıstanın "Elpida" Uşaq Dostluq Dərnəyinin prezidenti, UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinogiani tərəfindən "Ümid" mükafatı ilə təltif olunduğu barədə məlumat verilib. Onun həyata keçirdiyi bu çoxşaxəli fəaliyyət tolerantlıq və fərqli mədəniyyətlər arasında dialoq ideyasına öz töhfəsini verdiyi yazıda xüsusi olaraq vurğulanıb.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanı doğum günü münasibətilə ispandilli mətbuatda da materiallar verilib. Nikaraquanın "Kanal 8" və "Globo TV" televiziya kanalları, həmçinin İspaniya, Meksika, Kolumbiya, Kosta-Rika, Honduras, Venesuela Bolivar Respublikası və Argentina kimi ispandilli ölkələrin mətbu orqanları Mehriban xanım Əliyevanı doğum günü münasibətilə təbrik ediblər.

Məqalələrdə və reportajlarda qeyd olunub ki, dünyada ən işgüzar birinci xanım kimi tanınan Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva böyük və çoxşaxəli fəaliyyəti dövründə bir-birindən faydalı layihələrin müəllifi olaraq saysız insanların mənəvi dostuna çevrilib. Müəllifi və təşəbbüskarı olduğu layihə və proqramların əsas istiqamətlərini təhsil, mədəniyyət, səhiyyə, idman və sosial sahələr təşkil edir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qayğıya ehtiyacı olanlara kömək göstərmək, milli-əxlaqi dəyərləri qorumaq, həmçinin dünya ictimaiyyətinin diqqətini Azərbaycan həqiqətlərinə cəlb etmək istiqamətindəki fəaliyyətində qətiyyətlidir, israrlıdır.

Eyni zamanda, məqalələrdə və reportajlarda Heydər Əliyev Fondunun işğaldan azad edilmiş qədim Qarabağ torpağında dini abidələrin və məscidlərin bərpası layihəsinə başladığı vurğulanıb: "Heydər Əliyev Fondunun həyata keçirdiyi mədəniyyət diplomatiyası ölkənin xarici siyasətinin uğurlarında əhəmiyyətli rol oynayır. Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu mədəniyyətlərarası və dinlərarası əlaqələrin inkişafına və humanitar sahədə digər ölkələrlə ikitərəfli münasibətlərin dərinləşməsinə böyük töhfə verir".

Materiallarla aşağıdakı linklərdə tanış olmaq olar:

https://es.horrapress.eu/archivos/4054

https://expresionmexico.com/2021/08/20/fundacion-heydar-aliyev-lanza-proyecto-de-restauracion-de-monumentos-y-mezquitas-en-karabaj/

ttps://www.mipuntodevista.com.mx/fundacion-heydar-aliyev-proyecta-rescate-de-monumentos-religiosos-y-mezquitas-en-la-antigua-tierra-de-karabaj/

http://www.clubjuridico.com/fundacion-heydar-aliyev-proyecta-rescate-de-monumentos-religiosos-y-mezquitas-en-la-antigua-tierra-de-karabaj/

https://www.lavozdegoicoechea.info/2021/08/versiculo-del-dia_01548626703.html?m=1

https://www.youtube.com/watch?v=Jvy7AMy8OUc

https://datapoliticayeconomica.com.ar/2021/08/25/las-relaciones-entre-venezuela-y-azerbaiyan-en-la-nueva-geopolitica-de-integracion-de-los-pueblos/

https://www.saberesafricanos.net/noticias/opinion/6474-las-relaciones-entre-venezuela-y-azerbaiyan-en-la-nueva-geopolitica-de-integracion-de-los-pueblos.html

https://www.eldiariodehonduras.hn/index.php/internacionales/2765-la-fundacion-heydar-aliyev-lanza-un-proyecto-de-restauracion-de-los-monumentos-religiosos-y-mezquitas-en-la-antigua-tierra-de-karabaj









# "Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinə dövlət qayğısı: Problemlər və onların həlli yolları" mövzusunda seminar keçirilib

***Avqustun 27-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinə dövlət qayğısı: Problemlər və onların həlli yolları" mövzusunda seminar keçirilib.***



Tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov seminarda iştirak edən gəncləri salamlayıb, layihənin gənclər üçün əhəmiyyətindən, həmçinin mövzunun aktuallığından bəhs edib.



Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində keçirilən seminarların əhəmiyyətindən danışaraq belə layihələrin gənclərin inkişafında böyük rola malik olduğunu vurğulayıb.

M.Quliyev mövzu barədə geniş çıxışında sosial siyasətin dövlətin daxili siyasətindəki yerindən bəhs edib. Bildirib ki, sosial siyasət bütün ölkələrin daxili siyasətində prioritet sahələrdəndir və müasir dövrdə bunun əksi olan dövlətə rast gəlmək çətindir. Komitə sədri qeyd edib ki, sosial siyasət əhalinin mühüm ehtiyaclarının ödənilməsinə xidmət edir və onun bir çox istiqamətləri var. Bu mənada sosial siyasətin əsas istiqaməti əhalinin məşğulluğunun təmin edilməsidir.

Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birinin məcburi köçkünlərə diqqət və qayğının göstərilməsi olduğunu deyən M.Quliyev dünyada az sayda ölkənin daxili köçkün problemi ilə qarşılaşdığını qeyd edib. Dövlət müstəqilliyinin ilk illərindən bu problemlə qarşılaşmasına baxmayaraq ölkəmiz ötən müddətdə məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər icra olunub.

Eyni zamanda, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri barədə məlumat verən Komitə sədri deyib ki, ölkədə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərdən birini də belə şəxslərin məşğulluğunun təmin edilməsidir. Əvvəllər ölkəmizdə 1-ci və 2-ci qrup əlilliyi olan şəxslərin işlə təminatı həyata keçirilməsə də hazırda onların da sağlamlıq imkanlarına uyğun işlə təmin edildiyi vurğulayan M.Quliyev Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin məşğulluğunun təmin edilməsi istiqamətində fəaliyyətin davam etdirildiyini qeyd edib.



Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə diqqət və qayğısını xüsusi vurğulayan M.Quliyev Heydər Əliyev Fondunun da bu prosesdə fəal iştirak etdiyini də gənclərin diqqətinə çatdırıb.

Komitə sədri bildirib ki, 2014-cü ilə qədər ev növbəsinə duran şəhid ailələri mənzillə təmin edilib. 2014-2020-ci illər arasında ev növbəsinə yazılanların isə evlə tam təmin olunması prosesinin bu ilin sonuna qədər başa çatması nəzərdə tutulur. İkinci Qarabağ müharibəsi şəhidlərinin mənzillə təminatına gəlincə, bu, 2025-ci ilə qədər başa çatacaq. Sonda gəncləri maraqlandıran suallar cavablandırılıb.

# "Təəssüf ki, Ermənistan XİN-i hələ də "yaddaş pozğunluğu" sindromundan əziyyət çəkir"

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva UNESCO-nun missiyasının həyata keçirilməsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin şərhinə münasibət bildirib.***




AZƏRTAC xəbər verir ki, KİV-in bununla bağlı sualını cavablandıran Leyla Abdullayeva deyib: "Təəssüf ki, Ermənistan XİN-i hələ də "yaddaş pozğunluğu" sindromundan əziyyət çəkir. Belə olan halda biz qarşı tərəfə bir daha xatırladırıq ki, 30 ilə yaxın müddət ərzində Azərbaycana qarşı təcavüz siyasəti həyata keçirərək, onun beynəlxalq tanınmış ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayan Ermənistan bu torpaqlardakı tarixi, mədəni və dini irsin dağıdılması, mənimsənilməsi, mədəni sərvətlərimizin ölkəmizdən qeyri-qanuni çıxarılması kimi hərbi cinayətlərə görə məsuliyyət daşıyır. Bu cinayətlərin araşdırılması üçün Azərbaycan tərəfindən vaxtı ilə UNESCO-ya bölgəyə səfər edilməsi ilə bağlı çoxsaylı müraciətlər edilib və məhz Ermənistan beynəlxalq missiyaların Azərbaycanın o zaman işğal altında olan ərazilərinə səfər etməsinə əngəl olub. Bu fakt təşkilatın hesabatlarında əks olunub. Ermənistan XİN-nə UNESCO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatı ilə tanış olmağı tövsiyə edirik. Hesabatda aydın şəkildə, Azərbaycan hökumətinin Dağlıq Qarabağ və işğal olunmuş digər ətraf ərazilərə fakt araşdırma missiyasının göndərilməsi müraciəti, lakin Ermənistanın hərbi işğalı səbəbindən bu missiyanın həyata keçirilməsinin mümkün olmadığı qeyd edilir.

Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra Ermənistanın bu torpaqlarda törətdiyi məqsədyönlü dağıntıların miqyası beynəlxalq ictimaiyyət, o cümlədən dövlətlərin rəsmi nümayəndələri, müstəqil media agentlikləri, habelə qeyri-hökumət təşkilatları və s. tərəfindən ətraflı şəkildə qeydə alınıb. Görünməmiş vandallıq və "mədəni təmizləmə" törətmiş bir ölkənin öz əməllərini ört-basdır etmək üçün Azərbaycana qarşı yalan və cəfəng ittihamlarla çıxış etməsi təcrübəsi təəssüf ki, yeni deyil. Ermənistan tərəfi sonunda anlamalıdır ki, bu təcrübənin heç bir perspektivi yoxdur.

Azərbaycan işğaldan azad olunmuş ərazilərimizə UNESCO-nun müstəqil və obyektiv missiyasının həyata keçirilməsi məsələsinə dəfələrlə münasibət bildirib, hətta bu prosesi sürətləndirməyə çağırıb. Rəsmi İrəvanın belə bir missiyanın həyata keçirilməsinə etiraz etmədiyini bəyan etdiyinə görə, ümid edirik ki, missiya yaxın zamanlarda reallaşacaq və onilliklər ərzində Azərbaycan ərazilərində Ermənistan tərəfindən aparılmış tarixi, mədəni və dini irsin məqsədli şəkildə məhv edilməsi siyasətinin nəticələri qeydə alınacaq".

# Paşinyan: Türkiyədən bəzi müsbət siqnallar almışıq

***"Ermənistan Türkiyədən bölgədə sülhün bərqərar olması üçün bəzi müsbət siqnallar alıb". Bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan hökumət iclasında çıxışı zamanı bildirib.***



"Regionda sülhün bərqərar olması məsələsinə gəldikdə, deməliyəm ki, biz Türkiyədən bəzi müsbət siqnallar almışıq. Biz bu siqnalları qiymətləndirəcəyik, müsbət siqnallara müsbət siqnallarla cavab verəcəyik", - deyə N.Paşinyan bildirib.

# Əliyev Paşinyana hansı qadağaları qoyub?

## Erməni deputatları açıqladılar



***Ermənistanda müharibəsonrası situasiya ilə bağlı qızğın müzakirələr davam etməklə yanaşı, həmin məsələ ölkədaxili, eləcə də sosial-iqtisadi amillərə də öz təsirlərini göstərməkdədir. Xüsusilə, iqtidar-müxalifət tərəfdarları arasındakı qarşıdurmalar günü-gündən artmağa başlayıb. Belə ki, hər gün KİV-lərə çıxan hakimiyyət təmsilçiləri ilə müxalifətçilər yaşanan gerçəkliyə görə, yəni xəyanət və satqınçılıq məsələlərində bir-birlərinə qarşı davamlı ittihamlar yağdırmaqdadırlar.***

Buna misal olaraq 168 jam nəşrinin internet kanalında yayımlanan ”Review” proqramında müxalifətçi parlamentarilər - ”Ermənistan” bokunun deputatı Artur Xaçatryan və ”Şərəf duyuram” fraksiyasından olan Anna Mkrtçyan baş nazir Nikol Paşinyanı hədəfə alaraq ona qarşı demək olar ki, hər cür ağır ittihamlar səsləndiriblər.

ANALİTİK+AKTUAL

### ”Ermənistan” bokunun deputatı Artur Xaçatryan: ”Əbəs deyil ki, siyasi hakimiyyət Ermənistanın nəzarətində olan Azərbaycan ərazilərinin mövcudluğunu etiraf və bəyan edib”

SİA xəbər verir ki, Paşinyanın artıq ”məxməri” deyil, ”polad inqilabı” iddiaları ilə bağlı verilən sualı cavablandıran deputat Xaçatryan hesab edir ki, baş nazir bu iddiası ilə onunla razılaşmayan rəqiblərini uzaqlaşdırır.

”Paşinyan qanun arxasında gizlənərək siyasi repressiyalar həyata keçirir. Bütün bunların müqabilində Azərbaycan Ermənistanı güzəştə getməyə məcbur edir, bizimlə güc dilində danışır. Sünik (Zəngəzur) və Tavuş (Dilican) Ermənistanın ən həssas əraziləridir. Tavuşda müəyyən proseslər baş verir. Orada Rusiya blokpostlarının qurulması təsadüfi deyil və əbəs deyil ki, siyasi hakimiyyət Ermənistanın nəzarətində olan Azərbaycan ərazilərinin mövcudluğunu etiraf və bəyan edib. Daxili dirənişləri sındırmaq üçün isə Paşinyan siyasi repressiyalara əl atır”, müxalifətçi erməni deputatı bildirib.

Onun sözlərinə görə, mümkündür ki, Ermənistan Respublikası öz üzərinə müəyyən öhdəliklər götürüb, hansı ki, bu öhdəliklərin yerinə yetirilməsi üçün xarici təzyiqlər var.

### ”Əliyev Paşinyana deyir: əgər kişisənsə, indi get Qarabağa”

Jurnalist Xaçatryana sual edib ki, 44 günlük müharibədə Ermənistanın məğlubiyyətindən sonra Paşinyan nəyə görə bir dəfə də olsun Qarabağda olmayıb?

Onun cavabı kəsə olub: ”Kim onu Qarabağa buraxacaq ki? Qulaq asın, Ermənistanın keçmiş xarici işlər naziri Ara Ayvazyan Qarabağa getdi və dərhal Azərbaycanın kəskin reaksiyası oldu. Bundan sonra Ermənistanın bir nəfər də olsun yüksək çinli məmuru Qarabağa getməyə cürət etmir”.

Jurnalistin ”Belə çıxır ki, İlham Əliyev buna icazə vermir”, sualını da cavablandıran Xaçatryan cavab verib: ”Bilmirəm. Ancaq Əliyev Paşinyana deyir: əgər kişisənsə, indi get Qarabağa. Bundan əlavə, axı Paşinyan Qarabağa hansı üzlə getsin. Bizə qalanda isə, hətta Ermənistan öz təhlükəsizliyini təmin etmək halında deyil”.

### ”Şərəf duyuram” fraksiyasının deputatı Anna Mkrtçyan: ”Əliyev Paşinyana əmr edib ki, Qarabağla bağlı həyat səhifəsini bağlasın”

Deputat Xaçatryanla digər deputat Mkrtçyan da razıdır.

”9 noyabrdan sonra bu hakimiyyəti tapmaq mümkün deyildi. Hamı qaçmışdı, gizlənməyə cəhd edirdilər, zənglərə cavab vermirdilər, çox sevdikləri sosial şəbəkələrdə yazmırdılar. Ancaq sonra onlar hüquq-mühafizə orqanlarını gücləndirməyə başladılar və insanları susmağa məcbur edə bildilər. İndiyə qədər kapitulyant Nikol Qarabağda olmaq üçün riskə getmədi, ona görə ki, Əliyev ona qadağa qoyub. O, Paşinyana əmr edib ki, Qarabağla bağlı həyat səhifəsini bağlasın”.

Beləliklə, görünən budur ki, Ermənistanda ciddi böhran başlayıb. Bu isə tamamilə anladılacaq bir reallıqdır - əgər hakimiyyət və müxalifət bir-biri ilə ümumi dil tapa bilmirsə, eləcə də Azərbaycanla sülh arzulamırsa, bu zaman ölkədaxili situasiyanın müsbət məcraya dəyişəcəyini gözləməyin özü, yumşaq desək, axmaqlıq olardı. Necə deyərlər, nə tökərsən aşına, o da çıxar qaşığına...

***Rövşən RƏSULOV***

# YAP İmişli rayon təşkilatının XI hesabat konfransı keçirilib

***Avqustun 27-də Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***






Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayevin hesabat məruzəsi dinlənilib. Bildirib ki, rayon təşkilatının X konfransından keçən 3 ildən artıq müddət ərzində ölkəmizin həyatında mühüm uğurlar əldə edilib, iqtisadi, sosial və digər sahələrdə əsaslı irəliləyişlər olub, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənib, beynəlxalq nüfuzu xeyli artıb. Ulu Öndər Heydər Əliyev ideyalarının və onun siyasi kursunun qətiyyətli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin çoxşaxəli səmərəli fəaliyyəti YAP-ın aparıcı mövqeyini daha da möhkəmləndirir.





S.Ağayev deyib ki, YAP İmişli rayon təşkilatının 86 ərazi ilk partiya təşkilatında 8619 üzv var. Onların 34 faizi gənclər, 31 faizini qadınlar təşkil edir.

Sonra YAP İmişli rayon təşkilatının Nəzarət-Təftiş Qrupu sədri Yaşar Hüseynovun hesabat məruzəsi dinlənilib.







Müzakirələr zamanı İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, YAP İmişli rayon təşkilatının Şura üzvləri - Nazim Əzimov, Gənclər Birliyinin sədr müavini Zamin Zeynalov, Səməd Vurğun ərazi ilk partiya təşkilatının sədri Əlamdar Quliyev və rayon təşkilatı Gənclər Birliyinin üzvü Şəlalə Rəhimova hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyevə bildirib ki, Azərbaycanın dövlət müstəqilliyi, malik olduğu təbii sərvətləri, geopolitik üstünlükləri xalqımızın milli sərvətidir və hər bir Azərbaycan vətəndaşı kimi YAP-ın üzvləri də Azərbaycan Respublikasının dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumağı özünün birinci dərəcəli vəzifəsi hesab edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni reallıqların qarşıdakı illər üçün müəyyənləşdirdiyi hədəflərə yüksək səviyyədə nail olmaq potensialına, gücünə malikdir.



Yeni mərhələdə partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələrdən ətraflı bəhs edən Ə.Tağıyev YAP İmişli rayon təşkilatının gələcək fəaliyyətinə uğurlar arzulayıb.



Konfransda YAP İmişli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Baş nazirin müavini Əli Əhmədov ilə Gürcüstan nümayəndə heyəti arasında görüş keçirilib

***Avqustun 27-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.***



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədov Azərbaycan və Gürcüstan arasındakı tarixi dostluq və mehriban qonşuluq münasibətlərinə diqqət çəkərək, iki xalqın və dövlətin biri-birinə dərin hörmət və ehtiramı barədə danışıb.

Görüş çərçivəsində 30 illik işğal müddətində Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi vandallıq aktları haqqında məlumat verən Baş nazirin müavini bildirib ki, Ermənistanın Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə ərazimizin iyirmi faizinin zəbt edilməsi, milyona yaxın insanın qaçqın və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmayıb, Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurulub. 44 günlük Vətən müharibəsinin ardından dövlətimizin Qarabağda və Şərqi Zəngəzurda apardığı yenidənqurma və bərpa işləri barədə qonağa ətraflı məlumat verən Əli Əhmədov diplomatik korpusun tərkibində Gürcüstanın Azərbaycan Respublikasındakı səfiri Zurab Pataradzenin də işğaldan azad olunan torpaqlarımıza səfəri zamanı ermənilərin törətdikləri vandallıq aktlarının şahidi olduğunu qeyd edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze iki ölkə arasındakı mədəni əlaqələrin inkişafının əhəmiyyətinə toxunub. O, Gürcüstanın paytaxtı Tbilisi şəhərində tikilməkdə olan Azərbaycan teatrı barədə ətraflı məlumat verib, eyni zamanda, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Azərbaycanın Qax rayonunda mədəniyyət mərkəzinin inşasına görə dərin təşəkkürünü bildirib.

# İtaliyanın nüfuzlu qəzeti Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpa işlərindən yazır

***İtaliyanın nüfuzlu ”il Giornale” qəzetinin və həmin qəzetə bağlı ”Insideover” analitik portalının jurnalisti Emanuel Pietrobonun Azərbaycana səfəri ilə bağlı silsilə yazılarının dərc olunması davam edir. Bu xüsusda, növbəti məqalə kimi ”il Giornale” qəzetində müəllifin ”Qarabağ: Azərbaycanın keçmişi, bu günü və gələcəyi” sərlövhəli yazısı işıq üzü görüb.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın işğaldan azad edilmiş ərazilərlə bağlı ”ağıllı şəhərlər”, turizm, yenidən məskunlaşma və böyük infrastrukturun qurulması istiqamətləri üzrə böyük planlarının olduğu bildirilir. Müəllif qeyd edir ki, Azərbaycanın gələcəyinin əhəmiyyətli bir hissəsi daha çox tanınan Qarabağ, eləcə də azad edilmiş yeddi rayonlardan beşinin - Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və Cəbrayılın aid olduğu Şərqi Zəngəzur bölgələri ilə bağlı olacaq və burada rəsmi Bakı müttəfiqlərinin və tərəfdaşlarının, ilk növbədə İtaliya, Türkiyə və İsrailin iştirakı ilə evlər, avtomobil və dəmir yolları, hava limanları, ”ağıllı şəhərlər”, texnoparklar və elektrik stansiyaları inşa etməkdədir.

”İkinci Qarabağ müharibəsi alovlanmasa idi və müharibədə qalib gəlinməsə idi bunların heç biri nə mümkün, nə düşünülə, nə də aktual ola bilərdi. Çünki bütün bu layihələr 1990-cı illərin əvvəllərində başlayan otuz illik erməni işğalından sonra Azərbaycanda azad edilmiş ərazilər kimi tanınan və 2020-ci il noyabrın 9-da Azərbaycanın öz suverenliyini bərpa etdiyi ərazilərdə - şəhərlərdə, rayonlarda və kəndlərdə həyata keçirilir”, - deyə məqalədə bildirilir.

Müəllif qeyd edir ki, Bakı hava limanından çıxarkən Azərbaycanın bir ölkə ilə yanaşı, açıq havada nəhəng tikinti sahəsi olması barədə ilk təəssürat yaranır. ”Çünki, həqiqətən də, qüllələrdə olan kranlar, inşaat sahəsində çalışan işçilər və asfaltlama və tikinti işləri hər yerdə - həqiqətən də hər yerdə, Bakının mərkəzindən şəhər ətrafına, paytaxtdan Gəncəyə, Şuşadan keçərkən və digər azad edilmiş ərazilərdə görülə bilər. Bu tikinti sahələri ölkəni uzunundan eninə, dağlardan dəniz sahillərinə qədər nəhəng bir görkəmlə əhatə edirlər. Müharibədən sonrakı vəziyyət Ermənistandan fərqli olaraq Azərbaycanda fiziki və mənəvi milli dirçəlişin sinonimi kimi oxunur, şərh olunur və yaşanır”, - deyə müəllif vurğulayır.



Karabakh: passato, presente e futuro dell' Azerbaigian

25 Agosto 2021 - 09:45

L'Azerbaigian ha dei grandi piani per i territori liberati: città intelligenti, turismo, ripopolamento e grandi infrastrutture

Emanuel Pietrobon

0 COMMENTI

Lavori in corso per il nuovo aeroporto di Fuzuli

Yazıda bildirilir ki, kiçik və böyük inşaat sahələrinin bütün ölkə ərazisinə yayılmasına baxmayaraq, onlar Qarabağda və Şərqi Zəngəzurda xüsusilə çox həcmdə mövcuddur və şübhəsiz ki, ölçüsü və aktuallığı baxımından Füzulidə beynəlxalq hava limanının, ”Zəfər yolu” kimi tanınan Əhmədbəyli-Füzuli-Şuşa magistral yolunun, Qafqazın Xirosiması Ağdamdan keçən Naxçıvanla Azərbaycanı birləşdirəcək yüz kilometrlərlə dəmir yolunun inşası diqqətəlayiqdir.

”Qarabağ və Şərqi Zəngəzurda infrastrukturun qurulması mövcud sərmayə, nou-hau və tələb olunan vaxt baxımından bir çağırışdır. Azərbaycan hakimiyyətinin İtaliya-Türkiyə-İsrail üçlüyünə üstünlük verərək xaricdən investisiya yatırmağa çağırışı bu xüsusda əhəmiyyət kəsb edir. İşlər ciddi şəkildə başa çatdırılmalıdır. Çünki, bu layihələr həqiqətən də, Cənubi Qafqazın hegemon gücü olan Azərbaycanın gələcəyi üçün əhəmiyyətlidir”, - deyə məqalədə qeyd olunur.

Müəllif qeyd edir ki, gələcək sadəcə Bakı ilə Gəncə arasında deyil, daha çox Füzuli ilə Şuşa arasında yazılacaq və bu gələcək Qarabağın tam şəkildə inkişafı və Ermənistanla müvafiq normallaşma vasitəsilə Qafqaz regionunun geniş inkişaf imkanlarının açılmasındadır.

Məqalədə bildirilir ki, bölgədə infrastrukturun qurulması sadəcə yeni yolların, magistral yolların, dəmir yollarının, hava əlaqələrinin, texnoparkların, elektrik və günəş və külək elektrik stansiyalarının inşası anlamına gəlmir, çünki hökumət başqa bir vasitə ilə - turizmlə öz əraziləri üzərində suverenliyini bərpa etməsinin ardınca gəlirləri maksimum dərəcədə artırmaq niyyətindədir.

”Turist axınını təmin etmək üçün infrastrukturun qurulması istər daxili - özünü təmin edən turizm, istərsə də xarici - beynəlxalq turizm xizək kurortları, əyləncə parkları, mehmanxanalar və digər əyləncə yerlərinin inşası deməkdir. Çünki Qarabağ və Şərqi Zəngəzur yenidən qurulduqdan sonra mərkəzdən asılı olan bölgələr deyil, ölkənin (və dünyanın) digər hissəsi ilə uyğun inkişaf etmiş, özünü təmin edən bölgələr olmalıdır. Turizm də bu məqsədə xidmət edə bilər”, - deyə müəllif qeyd edir.

Jurnalist məqaləsində Azərbaycan hökumətinin bu əraziləri turizm baxımından necə cəlbedici etmək, eləcə də evlərin, mehmanxanaların və gələcək hava limanının işini necə təşkil etmək niyyətində olduğunu öyrənmək üçün Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmiddən müsahibə aldığını bildirir.

Məqalədə F.Zenqstşmidə istinadla qeyd olunur ki, Azərbaycanda turizm nisbətən gənc bir sektordur, bu sektor ümumi daxili məhsulun 2,5 faizinə birbaşa töhfə verir, dolayı gəlirlə bu rəqəm 4 faizə bərabərdir və Azərbaycan Avroviziya mahnı müsabiqəsi, İslam Oyunları, Formula 1 və Avropa futbol çempionatları kimi ən böyük tədbirlərə ev sahibliyi edən beynəlxalq bir məkandır.

Məqalədə beynəlxalq turistlərin daha çox Bakının ev sahibliyi etdiyi 2012-ci ildə Avroviziya mahnı müsabiqəsindən sonra ölkə ilə daha yaxından tanış olmağa başladıqları, bu gün Azərbaycanda turizm baxımından bütün imkanların - əla infrastrukturun, təlim keçmiş işçilərin, tematik paketləri olan səyahət agentliklərinin, tanınmış beynəlxalq markaların və alış-veriş üçün butik dükanların, italyanların da inkişafına töhfə verdiyi əla restoran və şərabçılıq müəssisələrinin olduğu bildirilir.

F.Zenqstşmidin fikirlərinə istinadla müəllif yazır ki, Bakının Amerika tipli göydələnlərindən başqa daha çox elementləri - uzun gözəl dəniz sahili, bulvarı, idman parkları, velosiped və skeytbord yolları, çay evləri, kafeləri, hətta içində şəlaləsi olan ”Deniz Mall” kimi Xəzərin ən böyük əyləncə kompleksi var.

”Bakı, ümumilikdə Azərbaycan İtaliyada və Avropa şəhərlərində tapıla bilən çox bənzər qədim və müasirliyin birləşməsidir. Burada dar küçələr, xalça mağazaları və mistik yerlər vardır. Paytaxtın kənarında, hər şeydən bir az tapa bilərsiniz: cənub şəlalələrindən tutmuş zirvələri dörd min metrə çatan və xizək sürə biləcəyiniz, qayalara və buzlaqlara dırmaşa biləcəyiniz Qafqaz dağlarına qədər. Limondan qarla örtülü zirvələrə qədər bütün bunları bir səfərdə görmək mümkündür: çünki maşınla ölkənin cənubu ilə Böyük Qafqaz dağları arasındakı məsafə cəmi beş saatdır”, - deyə F.Zenqstşmidin fikirlərinə istinad edilir.

Qeyd olunur ki, ölkənin gözəlliklərindən istifadə edərək əldə olunan gəliri maksimum dərəcədə artırmaqla yanaşı, hökumətin əsas məqsədlərindən biri Qarabağın və Şərqi Zəngəzurun brendləşdirilməsidir və Alp dağlarına çox bənzəyən Şuşa vadisindən Kəlbəcərə qədər olan yerlər vizual və mədəni zənginləşmə nöqteyi-nəzərdən unikal təcrübələr təqdim edə bilər.

”Yuxarıda göstərilən səbəblərə görə, hökumət avtomobil yolunun və Füzuli hava limanının tikintisində olduğu kimi işğaldan azad edilmiş ərazilərin modernləşdirilməsi, habelə ərazilərin təhlükəsizliyi, yəni minaların təmizlənməsi və potensial beynəlxalq investorlar üçün adekvat planların işlənməsi üzərində çalışır”, - deyə bildirən müəllif F.Zenqstşmidin fikirlərinə istinadən qeyd edir ki, ilk addım kimi həm yerli sakinlər, həm də xaricilər üçün Ağdam və Füzuli kimi yerləri ziyarət etmək, xarabalıqları və dağıntıları, həmin ərazilərin əvvəl necə, indi necə olduqlarını və yenidən tikilməkdə olan sahələri görmək üçün ümumi olan normal bir marşrutun qurulması ola bilər.

Müəllif Azərbaycanda çox etibarlı bir tərəfdaş sayılan İtaliyanın Azərbaycanın inkişaf etməkdə olan turizm sənayesinin ən böyük dəvətliləri arasında olduğunu bildirir və F.Zenqstşmidin fikirlərinə istinadən İtaliyanın töhfəsinin yeni mehmanxanaların qurulmasından əyləncə sektoruna qədər faydalı ola biləcəyini, texnologiyaya və infrastruktura töhfə verməklə İtalyan texnologiyasının Qafqaz dağlarında süni qar istehsalı və qar örtüyünün saxlanılması üçün istifadəsi və italyan mütəxəssislərinin Qarabağdakı mədəniyyət abidlərinin mühafizəsi və bərpasına cəlb olunması imkanlarını qeyd edir.

İnvestorlarla yanaşı, Azərbaycanın italyan turistlərini də dəvət etdiyini yazan müəllif Florian Zenqstşmidə istinadən italiyan turistlərinin burada müxtəlif italyan restoranları və digər tanış mənzərələri tapa biləcəyini, bəlkə də bu səbəblərdən 2018-2019-cu illər arasında İtaliyadan gələn turist axınında 10,8 faiz artım olduğunu vurğulayır.

Məqalədə deyilir ki, italyanlar Azərbaycana gəldikdə təhlükəsiz və multikultural bir ölkəni, ABŞ və İsraildən kənarda ən böyük yəhudi məskunlaşmasını, Qafqaz Albaniyasının qalıqlarını, kilsələri, məscidləri, Zərdüşt məbədlərini, fərqli mədəniyyətlərə və inanclara aid yerləri, Yanar dağı, Atəşgahı kimi unikal yerləri görəcəklər və mədəniyyətlərin və dinlərin bu sintezi Azərbaycana səfər etməyə təşviq edən əsas səbəblərdəndir. Məqalə ilə aşağıdakı keçidlərdən tanış olmaq mümkündür:

https://www.ilgiornale.it/news/mondo/karabakh-passato-presente-e-futuro-dellazerbaigian-1970880.html

# Vüqar Rəhimzadə: Görəsən, beynəlxalq təşkilatları gecikmiş addımlarında belə Ermənistandan təklif gözləməyə nə vadar edir?



***"Azərbaycan 30 il dünyadan ədalət gözlədi, ən yüksək tribunalardan ikili siyasətin yaratdığı problemləri, Ermənistanın başına çəkilən sığalların yeni ərazilər uğrunda müharibə planlarına yol açdığını bəyan etdi, imitasiya naminə danışıqların nəticə verməyəcəyini bəyan etdi, amma dünya yenə də özünü kar və kor kimi göstərib lal olmağında davam etdi.***

1992-ci ildə münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan ATƏT-in Minsk qrupunun həmsədrləri işğalçını adı ilə çağırmağın münaqişənin həllinə mane olacağını bildirib ikili siyasətlərini, erməni sevgilərini bu ad altında gizlətməyə çalışdılar. Rəsmi Bakı illərdir "Nə üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri bəzi hallarda qısa müddət ərzində icra olunur, Azərbaycana gəldikdə isə 30 ilə yaxındır ki, gözləyirik" sualına cavab tapmaq istədik. Qətnamələrin icrası üçün vahid mexanizmin müəyyənləşdirilməsi Azərbaycan dövlətini narahat edən məsələlər sırasında olub. Hansı ki, işğalçını adı ilə çağırmağın ATƏT-in Minsk qrupunun mandatına uyğun olmadığını, bunun birtərəflilik kimi qəbul ediləcəyini bildirən ABŞ, Rusiya və Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi həmin qətnamələrin qəbulunda iştirak etməklə yanaşı, 30 ilə yaxın müddətdə Ermənistana müxtəlif adlar altında maddi və mənəvi dəstək göstəriblər. Sənədlərdə işğalçı qüvvələrin ərazilərimizdən qeyd-şərtsiz çıxarılması yer alır, amma real addımlarda Ermənistana dəstək göstərilir və məsələnin sülh danışıqları əsasında həll ediləcəyi barədə görüntü yaradılırdı."

Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dövlət başçısı İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən 30 illik işğal dövrünün reallıqlarına diqqəti yönəldərək bir daha bildirdi ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin də üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Ədaləti, beynəlxalq hüququ bərpa etdi. Əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, müharibə baş verməzdi.

Baş redaktor diqqəti Azərbaycanın torpaqlarımızın işğalı dövründə münaqişənin həllində bütün beynəlxalq təşkilatların potensialından istifadə etməyə göstərdiyi səylərə yönəldərək bildirib ki, BMT-yə Faktaraşdırıcı missiyanın yaradılıb işğal altında olan torpaqlarımızda süni məskunlaşma faktını araşdırmaq üçün bu ərazilərə səfər edilməsi təklif edilləndə bunu ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasına müdaxilə kimi beynəlxalq ictimaiyyətə təqdim edən işğalçı Ermənistanın əssasız fikirləri əsasında ATƏT-in Minsk qrupu belə bir missiyanı özü yaradacağını bildirdi: "Həmin missiya yaradıldı və iki dəfə işğal altında olan ərazilərimizdə oldular. Açıq-aşkar bildirildi ki, torpaqlarımızda Ermənistan tərəfindən süni məskunlaşdırma siyasəti həyata keçirilib. Amma hesabatların hazırlanması zamanı "məskunlaşmanı hansı tərəfin həyata keçirdiyini deyə bilmərik. Bu, mandatlarına uyğun deyil" söyləyib, yenə Ermənistanın çaldığı hava ilə oynadılar."

V.Rəhimzadə işğal dövründə Azərbaycanın həmin ərazilərdə tarixi abidələrimizə dəymiş ziyanla tanış olmaq üçün UNESCO-nu da bölgəyə dəvət etdiyini bildirib: "Amma UNESCO bundan imtina etdi. Prezident İlham Əliyev BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisini qəbul edərkən bu məqamlara da diqqəti yönəldərək bildirmişdir ki, UNESCO-ya bu təklif ediləndə qurum rəsmiləri siyasi məsələlərə qarışmadıqlarını bildirdilər.

Maraqlıdır, beynəlxalq təşkilatlar ədaləti, beynəlxalq hüququn norma və prinsiplərini qorumaq, müdafiə etmək üçün tərəddüd edir, ən əsası Ermənistandan təklif gözləyirlər. Maraqların ədaləti üstələdiyi dünya 30 il sülh danışıqlarının səmərə verəcəyini deyib Ermənistana vaxt qazandırdı. Həqiqəti bilərəkdən görməzdən, yaxud eşitməzdən gəlmək karlıq və korluq yox, ədalətsizlikdir. Bu ədalətsizliyin sonda 44 günlük Vətən müharibəsini şərtləndirdiyini BMT də, UNESCO da yaxşı bilir. "

"Sual olunur- Müharibə bitdikdən sonra dəyişən nə oldu ki, UNESCO məsələnin siyasiliyini unudub bölgəyə gəlmək istədiyini bildirdi? Atılan hər addımda Ermənistana dəstək özünü qabarıq şəkildə nümayiş etdirir. Artıq tarixə qovuşmuş Dağlıq Qarabağ məsələsini gündəmdə saxlamağa ehtiyac yoxdur. UNESCO kimi təşkilatlar həmin istəkləri ilə Ermənistanın münaqişənin hələ bitməməsi ilə bağlı sərsəm fikirlərinə dəstək olmağa, bölgənin "qapılarını" xarici müdaxiləyə açıq saxlamağa çalışırlar. Belə olmasaydı, Azərbaycan tərəfi bölgəyə gəlmək üçün razılıq verdiyi, özü də bununla bağlı missiya yaratdığı halda Ermənistandan təklif gözləməzdi. Bütün bunlar ümumilikdə bəşəriyyətə məxsus mədəni irsin qorunmasına görə məsuliyyət daşıyan bir təşkilatın siyasi maraqlarından irəli gələn ikili standartlar qarşısında əyildiyini nümayiş etdirir. Belə utancverici davranışlar heç bir dövlətə, beynəlxalq təşkilata dividend qazandırmır, əksinə, etimadsızlıq mühitini daha da dərinləşdirir",- deyə baş redaktor bildirib.

V.Rəhimzadə vurğulayıb ki, ədaləti, beynəlxalq hüququ təkbaşına bərpa etmək gücündə olan və Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək tarixə qovuşduran Azərbaycan hər bir məsələni həll etmək imkanlarına malikdir. UNESCO kimi Ermənistana baş əyib onun təklifini gözləyən, etirazından qorxub küncə çəkilən qurumların hansı mövqedə olduqlarını Azərbaycan 30 ilə yaxın müddətdə şahidi və 44 günlük müharibə bir daha bu həqiqətlərə işıq saldı. Gecikmiş addımlarında da işğalçı Ermənistandan razılıq gözləyənlərə inam tamamilə sıfırdır. Beynəlxalq təşkilatlar ədaləti müdafiə etmək üçün Ermənistandan, işğalçı dövlət də Azərbaycanın ortaya qoyduğu təkmil sülh razılaşmasını imzalamaq üçün ATƏT-in Minsk qrupunun həmsədrlərindən təklif gözləməklərində olsunlar. Amma unutmasınlar ki, bu gün artıq qalib ölkə kimi diktə edən tərəf Azərbaycandır. Ölkə Prezidentinin bəyan etdiyi kimi, Azərbaycan sülh təklifini uzun müddət masa üzərində saxlamayacaq."

Baş redaktor bildirib ki, Prezident İlham Əliyevin qeyd edilən qəbulda vurğuladığı kimi, artıq gələcəyə baxmalıyıq və hazırda əsas hədəfimiz dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində BMT ilə əməkdaşlığa ümid edir.

# YAP Beyləqan rayon təşkilatının XI hesabat konfransı keçirilib









***Avqustun 27-də Yeni Azərbaycan Partiyası Beyləqan rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib.***

Əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Beyləqan rayon təşkilatının sədri Rəfail Pəsiyev bildirib ki, öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir. Yeni Azərbaycan Partiyası bütün məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində dayanıb, xalqımızın arzularının təcəssümü, yekdil iradəsinin ifadəçisi kimi çıxış edib. Müstəqilliyimizin qorunub saxlanılmasında, möhkəmlənməsində Yeni Azərbaycan Partiyasının özünəməxsus yeri var.









R.Pəsiyev qeyd edib ki, rayon təşkilatının 66 ərazi ilk partiya təşkilatında 6075 nəfər üzv birləşir ki, onlardan da 2583 nəfəri qadınlar, 1858 nəfəri isə gənclərdir. X konfransdan ötən dövr ərzində 1057 nəfər rayon təşkilatının sıralarına qəbul edilib.

Daha sonra YAP Beyləqan rayon təşkilatı Nəzarət Təftiş Qrupunun sədri Fədayət Rüstəmovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, rayon təşkilatının Qadınlar Şurasının sədri, 1 saylı məktəb ərazi ilk partiya təşkilatının sədri Gülbəniz Cəfərova, rayon təşkilatının Gənclər Birliyinin sədri Rufiz İsmayıllı, Mayak qəsəbə ərazi ilk partiya təşkilatının sədri Elçin Məmmədov çıxış edərək təşkilatın hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayında ölkə Prezidenti İlham Əliyevin proqram xarakterli, müasir dövrün, 44 günlük İkinci Qarabağ müharibəsində Qələbəmizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi bütün partiya üzvləri üçün yeni vəzifələr müəyyənləşdirib. 44 günlük Vətən müharibəsindən alnıaçıq çıxan Azərbaycan dövləti böyük Zəfər günlərini qeyd edir. Azərbaycan bölgədə və dünyada yeni reallıqlar yaradıb. Vətən müharibəsindən qalib çıxan Azərbaycan 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü bərpa edib. Ölkəmiz özünün iqtisadi, siyasi çəkisinə görə fərqli bir dövlətdir. Yeni bütövlükdə, Azərbaycan fərqli bir reallıq yaradıb və bu yeni reallıqlara uyğun qarşımızda yeni çağırışlar, vəzifələr durur.

Ə.Tağıyev YAP Beyləqan rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Beyləqan rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Həqiqi mərhəmət konkret addımlar





*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ictimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilgrək, əməli fəaliyyət ilə böyük nüfuza sahib olub. Bu gün cəmiyyətimizin örnəyinə çevrilən Mehriban xanım məsuliyyət və zəhməti ilə fəaliyyətini davam etdirir. Onu vətənpərvərliyi, vətənə bağlılığı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Təbii ki, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması Onun vətənə bağlılığından irəli gəlir.*

*Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "Birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmiş oldu.*



## "Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm"

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Birinci vitse-prezident secildikdən sonra müsahibələrindən birində bildirib ki, yeni vəzifədə Prezidentin etimadını, ən başlıcası isə ona inanan, ona ümid bəsləyən insanların etimadını doğruldacaq: "Məni Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində həm Prezidentin xanımı, həm də onun silahdaşı olmağım da yəqin ki, öz rolunu oynayıb".

Azərbaycanın Birinci vitse-prezidenti müxbirin "Siz dərhal razılaşdınızmı?" sualına cavabında deyib: "Biz müzakirələr aparır, götür-qoy edirdik. Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın mənə tövsiyələri və deyəcəkləri tamamilə üst-üstə düşəcək. Deməli, yanımda onun simasında birmənalı şəkildə mənə kömək edəcək, hər hansı çətinliyim olarsa məni dəstəkləyəcək, düzgün yol göstərəcək bir şəxsiyyət var. Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Belə də oldu. Mehriban xanim ən cətin zamanlarda insanların yanında oldu. "Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm. Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır - istər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır", deyə Birinci xanım bildirib.



Heydər Əliyev ideologiyasını davam etdirmək və prinsipləri gerçəkləşdirmək üçün Heydər Əliyev Fondunun yaradılması onun çoxsaylı layihələrinə imza atdı. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb.

Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirilir. Azərbaycan cəmiyyətinin yaratdığı hüquqi normalardan yararlanan və bu prinsiplər əsasında dünyaya qapı açan Mehriban xanım Əliyeva ictimai-siyasi, mədəni, sosial proseslərdə fədakarlıq nümunəsini göstərir.

Vurğulayaq ki, aktiv ictimai fəaliyyətə 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayıb. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan-İrs" jurnalını təsis edib. Müsahibələrindən birində Azərbaycan Mədəniyyət Fondunun və "İrs" jurnalının yaradılma məqsədlərini Mehriban Əliyeva özü belə bildirmişdir: "Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, Fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıbdır. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində, həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişdik. Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı".

## Humanizmin ən nümunəvi göstəricisi

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyəti, bu Fondun mədəniyyət və səhiyyə sahəsində həyata keçirdiyi irimiqyaslı layihələr, o cümlədən talassemiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı və talassemiyaya tutulmuş uşaqlar üçün ixtisaslaşdırılmış mərkəzin yaradılması və s. onun xeyriyyəcilik əməllərinə söykənir. "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam", - deyən Mehriban xanım genişmiqyaslı layihələri ilə diqqəti cəlb edib. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq Azərbaycanın bir sıra rayon və kəndlərində yeni məktəb binalarının inşa, təmir və bərpa olunaraq istifadəyə verilməsi bu görülən işlərin davamı olaraq reallaşır. Belə ki, məktəblər müasir avadanlıqlarla təchiz edilə-

ŞƏRH

# atılmasını tələb edir



rək, dünya standartlarına uyğun qurulur ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərməkdədir. Demək olar ki, Azərbaycanın hər bir məkanında təhsil sahəsində aparılan bu dəyişikliklər özünü büruzə verir. Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnərək, dünya təhsil sisteminə inteqrasiya olunur. Bu uğurlu addım Fondun başlıca vəzifəsi olaraq davam etdirilir.

Fondun səhiyyə ocaqlarının bərpa edilməsi və inşası ilə bağlı layihələri də öz nəticəsini vermiş bu gün tibbi müəssisələr dünya standartlarına uyğun inkişaf etmiş ölkələrdən gətirilmiş müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, Fondun həyata keçirdiyi sosialyönlü layihələr sırasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və s. layihələri xüsusi olaraq vurğulamaq lazımdır.

Fondun humanitar yardımı çərçivəsində əldə etdiyi böyrək hemodializ aparatları ilə bir sıra tibb müəssisələri təmin edilmişdir. Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir. Fondun dəstəyi ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixonevroloji mərkəz istifadəyə verilmişdir. Paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Onu da bildirək ki, səhiyyəyönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün həmin xəstəliyə düçar olanların ümid yerinə çevrilən mərkəz Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunub. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır. Bütün bunlarla yanaşı, Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında artıq bir neçə lokal layihə həyata keçirilmişdir. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə də töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Heydər Əliyev Fondu daim himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərdi vg bu davamlıdır. Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrılıb.

Heydər Əliyev Fondu minlərlə insanın qəlbində bir ümid çırağı yandırıb. Mehriban xanım Əliyevanın mərhəməti, xeyriyyəçiliyi, humanizmi bu münasibətin formalaşmasına səbəb olub.

### "Biz müsəlman ölkəsiyik, lakin eyni zamanda, dünyəvi dövlətik, bizim dünyəvi əsaslarımız var"

Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində Fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. "Əlbəttə, biz müsəlman ölkəsiyik, lakin, eyni zamanda, dünyəvi dövlətik, bizim dünyəvi əsaslarımız var. Biz öz dinimizə, ənənələrimizə dərin hörmət və ehtiram bəsləyirik. Lakin bizdə dövlət və din bir-birindən ayrıdır və düşünürəm ki, bu məsələdə heç bir problem yoxdur. Mən buna tamamilə hazıram, bunu hər hansı çağırış hesab etmirəm", deyg Mehriban xanım Əliyeva bildirib. Onun dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Heydər Əliyev Fondu nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazılıb. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

### "Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz"

O, Milli Məclisin deputatı kimi fəaliyyət göstərdiyi illər də də əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərdi. "Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz" - deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etdi ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur.

Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. 2007-ci il 8 mayda Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o, öz çıxışında qeyd etmişdir ki, " səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk".

Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır.

O, bu təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır.

O fəaliyyəti dövründə "Heydər Əliyev" ordeni , "Şərəf Legionu" ordeni, "Dostluq" ordeni , "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni , "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni, "Hilal-e Pakistan" ordeni, "Sreten" ordeni, "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni , "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, Krans Montana Forumunun Qızıl medalı və "Prix de la Fondation" mükafatı, Avropa Olimpiya Komitələrinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı, Küveyt Dövlətinin Fəxri diplomu;

Heydər Əliyev Mükafatı, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, "Qızıl ürək" beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı və s. ilə təltif olunmuşdur.

### "İşğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik"

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihəyə başlayıb. Fondun prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirmişdi ki, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik: "Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsərəlamət qalmamışdır".

Mehriban Əliyeva qeyd etmişdir ki, layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Fəaliyyəti dövründə həyata keçirdiyi bu və ya digər layihələr Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verir. Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etdi. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunmuşdu. Bü gün işğaldan azad olunan dini-mədəniyyət abidələrinin bərpasına öz töhfəsini verir. Hər dəfə Cənab Prezident ilə işğaldan azad olunan ərazilərimizə səfəri və öz təssüratlarını ifadə etməsi vətənpərvərlik duyğularının təcəssümüdür.

Genişmiqyaslı layihələri ilə şöhrət tapan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva haqqında hazırlanan "Birinci xanım" adlı sənədli film onun fəliyyətinin əks etdirir.

**Nəzakət ƏLƏDDİNQIZI**



# “Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir”

”Ötən gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak etdilər. Hər zaman olduğu kimi, bu dəfə də Prezident İlham Əliyev çıxışında bir çox vacib məqamlara toxundu”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin şəhid ailələri ilə görüşdə xüsusi vurğuladığı məsələlərdən biri İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün daha fəal olmaqla bağlı idi: ”Hazırda görünən odur ki, döyüşlər bitsə də, amansız mübarizə davam edir. Ermənilər hazırda informasiya müharibəsində qələbələrini təmin etmək üçün səylə çalışırlar. Bu müharibədə uduzmamaq üçün hər birimiz səylə çalışmalıyıq. Prezidentin xüsusi qeyd etdiyi digər bir məsələ gənclərimizin tərbiyə ilə bağlı idi. O qeyd etdi ki, İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir. Bu baxımdan hazırkı mərhələdə orta məktəblərimizin və ali təhsil müəssisələrimizin üzərinə ciddi vəzifələr düşür. Gənclərimizin bu ruhda tərbiyəsi üçün bütün gücümüzü səfərbər etməliyik. Prezident İlham Əliyevin vurğuladığı digər vacib məqam işğaldan azad olunmuş ərazilərlə bağlı idi. Prezident qeyd etdi ki, ”Bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər Şuşa şəhərini azad edib, bununla bərabər Hadrutu azad edib, bununla bərabər Xocavənd rayonunun 60 faizini azad edib, Suqovuşan qəsəbəsini azad edib. Ona görə biz yeddi rayondan daha çox ərazini azad etmişik. Bu ərazilərin strateji əhəmiyyəti göz önündədir. Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapatdıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi”.

Deputat fikirlərinə davam edərək həmçinin qeyd etdi ki, bu, bir reallıqdır ki, Azərbaycan qısa müddətdə işğalda olan ərazilərini böyük peşəkarlıqla düşməndən azad etdi, bölgədə yeni reallıq yaratdı: ”Tarixdə ilk dəfə Azərbaycan itirilmiş torpaqlarını bərpa etdi. Bu gün Azərbaycan bütövlükdə bölgədə bütün strateji nöqtələrə nəzarət edir. Bu təkcə Qarabağda yox, həm də Ermənistanla olan bütün sərhədlərimizdə belədir. Bu, böyük bir uğur və tarixi nailiyyətdir. İşğalda olan digər ərazilərimizə gəldikdə təzliklə onlar da işğaldan azad olunacaq. O gün uzaqda deyil. Buna heç kimin şübhəsi olmasın. Bunun üçün hər birimiz daha çox çalışmalı, bütün gücümüzü səfərbər etməli, birlik və həmrəyliyimizi qorumalıyıq.Müharibə bitsə də mübarizəmiz davam edir. Bu mübarizənin qalibi sona kimi biz olmalıyıq, düşmənin yenidən dirçəlməsinə imkan verməməliyik. Bu, hər birimizdən asılı olan məsələdir”.

***Arzu Qurbanzadə***

# “Qarabağda və Şərqi Zəngəzurda görülən işlər bu torpaqlarımızın iqtisadi potensialından da bəhrələnməyimizə imkan yaradacaq”



Avqust ayının 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına 300 mənzilin, həmçinin müharibə əlillərinə 50 avtomobilin təqdim edilməsi mərasimində iştirak etdilər. Bu, şəhid və qazi ailələrinə dövlətimizin diqqət və qayğısının təzahürü olmaqla bərabər sosial-mənəvi kontekstdə mühüm bir hadisədir. Dövlətimizin başçısının tədbirdəki çıxışı və verdiyi mesajlar isə tarixi strateji müstəvi baxımından son dərəcə əhəmiyyətlidir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputat vurğulayıb ki, Azərbaycan Prezidenti tarixi yada salaraq əsirlər boyu xalqımıza qarşı necə məkrli siyasətin həyata keçirildiyinin və son 101 ildə baş verən hadisələrin üstündə xüsusi dayandı. Dövlətimizin başçısı ilk dəfə ”Dağlıq Qarabağ” ifadəsinin işlədilməsindən və tarixi vətənimiz olan Zəngəzurun bölünməsinədək olan məsələlərə toxundu: ”Prezident İlham Əliyev qeyd etdi ki, 1920-ci ildə sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirib. Ondan sonra həmin bölgədə azərbaycanlılar deportasiyaya məruz qalıblar. 1923-cü il iyul ayının 7-də isə bizim ərazimizdə süni bir qurum - Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Hazırkı reallıq isə ondan ibarətdir ki, Müzəffər Ali Baş Komandanımız tərəfindən bu acı gerçəklik dəyişdirildi. Azərbaycan Prezidentinin 7 iyul 2021-ci ildə imzaladığı Sərəncamla tarixi ədalət bərpa edildi. Artıq uzun illər siyasi-iqtisadi və diplomatik müstəvidə manipulyasiya predmetinə, siyasi şantaj vasitəsinə çevrilən ”Dağlıq Qarabağ” termini yoxdur. Azərbaycan ərazisində dağı və aranı ilə bütöv olan vahid Qarabağ iqtisadi rayonu və Qarabağ mahalı var”.

H.Babaoğlu qeyd edib ki, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması da önəmli məsələdir. Qərbi Zəngəzur isə ermənilərin nəzarətindədir. ”Aranlı-dağlı vahid Qarabağ kimi gələcəkdə şərqli-qərbli Zəngəzuru da bütöv görəcəyik”, - deyə deputat vurğulayıb. Hazırkı tarixi mərhələdə isə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Qarabağı və Şərqi Zəngəzuru sözün həqiqi mənasında cənnətə çevrilməkdədir. Hər iki iqtisadi rayonda görülən böyük logistika və kommunikasiya işləri, yol-nəqliyyat və enerji kommunikasiyaları ən qısa zamanda bu torpaqlarımızda olan iqtisadi potensialdan da bəhrələnməyimizə imkan yaradacaq. Tezliklə insanlarımız öz ana yurdlarına qayıdacaqlar. Nəhayət ki, illərdir həsrəti ilə yaşadığımız ”Böyük qayıdış” arzusu reallığa artıq çevriləcək.

# Regionun ən böyük ”maneə mərkəzi”

*Sən demə, İran-Ermənistan sərhədinin "suveren" Ermənistanın nəzarətində "olması" həm Rusiya, həm də Türkiyənin bu bölgəni bölmək planlarına mane olurmuş*



...Erməni mediası həyəcanlı bir şəkildə iki qardaş ölkə arasındakı əlaqənin kəsilməsindən yazır. Deməli, indi İrandan Ermənistana və ya geri, ancaq hava nəqliyyatından-təyyarədən istifadə etməklə çatmaq olar.

Bu da öz yerində, amma burada ermənilərin yandırıb dədələrinə od qoyan isə bilirsiniz nədir? Erməni parlamentində yolun bağlanmasından danışarkən, iqtidar və müxalifət nümayəndələrinin onu ”incə” bir şəkildə ”Goris-Qapan yolu” adlandırmaları. Bəs, bu necə olur?

Axı, onlar məgər qanmırlar ki, bu yol kəndarası yol deyil, bu yol ermənilər üçün çörək, dövlətlərarası İran-Ermənistan magistral yoludur. Bu yolla qardaş İran dövlətindən gündə onlarla yük dolu tirlər Ermənistana azuqə (təkcə azuqəmi?) daşıyırdı. Bəli, dünənədək daşıyırdı, amma indi bu iranlı sürücü qardaşlarımızın hamısı İran sərhədində bardaş quraraq oturub Ermənistana keçmək üçün növbələrini gözləyirlər.

Qeyd edək ki, bəzi erməni saytları Bakının uzun müddətdən bəri İranla Ermənistan arasındakı əlaqəni kəsmək üçün zəmin hazırladığını bildirirlər. Onların yazdığına görə, bu il avqustun 11-də Bakı İran yük maşınlarının Qarabağa ”Azərbaycan hakimiyyətinin icazəsi olmadan” daxil olması ilə əlaqədar İran səfirinə etiraz notası göndəribmiş. Bundan əlavə, daha sonra Azərbaycan Xarici İşlər Nazirliyi ”İranın yeni rəhbərliyinin iki ölkə arasındakı dostluq və tərəfdaşlıq münasibətləri ruhuna uyğun olmayan hərəkətlərin qarşısını almaq üçün praktiki addımlar atacağına” ümidvar olduğunu da izhar edib.

Amma görən, İranın yeni rəhbərliyi bu məsələyə necə baxacaq? Bax, hazırda bu, ermənilləri narahat edən məsələlərdən ən önəmlisidir. Görən, Ermənistan xarici işlər nazirliyi İranın yeni xarici işlər naziri ilə məsləhətləşmələr aparırmı? Deyəsən, o gün Ermənistanın təzə xarici işlər naziri Ararat Mirzoyan öz ”Twitter” səhifəsində Əmir Abdollahiyana İranın xarici işlər naziri təyin olunması münasibətilə ən xoş arzularını bildirib. Təbii ki, bunun da effekti özünü çox gözlətməz, yəni müsbətə olar...

Bu arada ermənilərin ”lragir.am” saytının yazdığına görə, guya İran-Ermənistan sərhədinin ”suveren” Ermənistanın nəzarətində ”olması” həm Rusiya, həm də Türkiyənin bu bölgəni bölmək planlarına mane olurmuş.

...Ay səni xətəkar..., burada deyirlət ey, ”qoluna çöpdən dirək”.

Sən demə, həm Moskva, həm də Bakı Ermənistanla İran arasındakı əlaqəni kəsmək və Ermənistan-İran sərhədini nəzarətə götürmək üçün mümkün olan hər şeyi edirlər. Ermənilərə görə, əgər tərəflər bu problemi həll edə bilsələr, onda Ermənistan özünü tamamilə təcrid vəziyyətində görəcək.

Qeyd edək ki, bu gün erməni hakimiyyətindən bir ”iş aşmadığını” görən, bəzi ermənilər, indi də bir zamanlar səs verdikləri müxalifət nümayəndələrinə ümid bəsləmək istəyirlər. Amma maraqlıdır ki, hələ ki, nə Robert Koçaryandan, nə Seyran Ohanyandan, nə də Serj Sarkisyandan bir səs-soraq eşidilməyib.

Az-çox qaraltı salmağa çalışan erməni ombudsmanı Arman Tatoyandı ki, ermənilər artıq onun da verdiyi bəyanatların ”qara qəpiyə” dəymədiyini bildirirlər: ”Azərbaycan hakimiyyəti yolların bağlanmasını əvvəlcədən planlaşdırıb”.

...Hə, indi nə olsun ki?

***Ağasəf Babayev***

# Nəcib və xeyirxah missiyanın daşıyıcısı



ZƏRİFƏ QULİYEVA, YAP üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri

## Mehriban Əliyeva: "Mən əminəm ki, cəmiyyətdə bütün ağır, çətin problemləri xeyirxahlıqla, insanseverliklə, mərhəmətlə həll etməyə çalışmaq lazımdır"

Öz müdrikliyi, nüfuzu və zəkası, eləcə də incəlik və qətiyyəti ilə Vətəninin, millətinin qeyrətini çəkən, onun inkişafı naminə fədakarcasına mübarizə aparan Azərbaycan qadınları əsrlər boyu buraxdıqları izlərilə bu gün də şanlı tariximizdə yaşamaqdadırlar. Tarixlər boyu sübut olunmuşdur ki, Azərbaycan qadını cəmiyyətdə yalnız ailə mühiti ilə məhdudlaşmayıb, o cümlədən, ictimai həyatda da daim fəal olduqlarından daim layiqli mövqeyə sahiblik edib.

### Səmərəli fəaliyyət, yorulmaz missiya

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinə diqqət yetirsək bu kimi əhəmiyyətli məqama layiq olan şəxs məhz Mehriban xanım Əliyevadır. Çünki O, fəaliyyəti müddətində gördüyü bütün işləri ilə, reallaşdırdığı nəhəng layihələri ilə həmin məqamı kifayət qədər təsdiqləmiş olur. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində əvəzsiz, müstəsna rola malikdir.

Mehriban xanım Əliyevanın ali dəyərlərə söykənən, Azərbaycan xalqı və dövlətinin maraqlarını əks etdirən fəaliyyətindən bəhs edərkən, ilk növbədə, Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizin inkişafına verdiyi töhfələrə, sərgilədiyi çoxşaxəli fəaliyyətə diqqət yetirmək gərəkdir. Məlum olduğu kimi, 2004-cü il may ayının 10-da fəaliyyətə başlayan Heydər Əliyev Fondu yaradılarkən Ümummilli Lider Heydər Əliyevin zəngin irsini öyrənməyi, təbliğ etməyi, Onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməyi, həmçinin, Azərbaycanın mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə kömək göstərməyi qarşısına məqsəd qoyub. Bu gün tam əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Xüsusi olaraq, Fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Aksiyalarda "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, "Qarabağ həqiqətləri" adlı bukletlər və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı təqdim olunur.

Xüsusilə Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən önəmli addımlardandır. Təsadüfi deyil ki, məhz bu kampaniyaya start veriləndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulub.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edərkən onun Azərbaycan mədəniyyətinin inkişafı üçün göstərdiyi xidmətləri xüsusi olaraq vurğulamaq lazımdır. Çünki Azərbaycanın birinci xanımı ölkəmizin müstəqilliyinin ilk dövrlərindən etibarən milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində geniş fəaliyyət göstərir. Bundan başqa, xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də, mədəniyyətlərarası dialoqun genişləndirilməsində Heydər Əliyev Fondunun BMT-nin ən mötəbər qurumlarından olan UNESCO ilə əlaqələri xüsusi yer tutur. Mehriban xanım Əliyevanın UNESCO ilə əməkdaşlıq çərçivəsindəki fəaliyyəti müxtəlif ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi, sivilizasiyalararası dialoqun genişləndirilməsi yönündə mühüm nailiyyətdir. Bu məqamda qeyd edək ki, məhz Prezident İlham Əliyevin və UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətinin nəticəsi olaraq muğam və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də, Azərbaycan xalçası UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Azərbaycan xalqı xoşbəxtdir ki, insanlıq, ləyaqət, səmimiyyət, mərhəmət, nəciblik və şəfqət kimi ali insani dəyərlərin daşıyıcısı olan ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ali rəhbərimizin gücünə güc qatır, onun insanların rifahı naminə gördüyü müstəsna fəaliyyəti misilsiz xidmətləri ilə zənginləşdirir. Mərhəmətli Mehriban xanım Əliyeva dəfələrlə ölkə vətəndaşlarına həm Birinci vitse-prezident, həm də bir ana olaraq müraciət edərək, onların sağlamlığının hər şeydən dəyərli olduğunu vurğulamış, eyni zamanda insanlara mənəvi dəstək olaraq böyük inam hissi ilə bildirmişdir ki, "Əminəm ki, müdrük xalqımızın ən gözəl xüsusiyyətləri, ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə can sağlığı və uzun ömür arzulayıram!".

Ölkəmiz təkcə bütün dünyanı hədələyən KOVİD-19 pandemiyası ilə sınağa çəkilməmişdir, eyni zamanda ötən ilin 27 sentyabr tarixində faşizm və terrorizm ideologiyasını dövlət siyasəti səviyyəsinə yüksəldən Ermənistanın növbəti və iri miqyaslı hərbi təxribatının hədəfinə çevrildi. Başlanan Vətən müharibəsində müzəffər Ali baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz 44 gün ərzində Ermənistan rəhbərliyini kapitulyasiya aktına imzalamağa məcbur etdi. Nəticədə bölgədə yeni tarix reallıqlar formalaşmışdır. Ərazi bütövlüyümüz bərpa edilmiş, beynəlxalq hüququn uzun müddət ərzində Ermənistan tərəfindən məhəl qoyulmayan prinsipləri işlək vəziyyətə gətirilmişdir. İşğaldan azad olunmuş bütün torpağlarımızın bərpası və yenidənqurulması mərhələsi başlanmışdır. Həm Vətən müharibəsi, həm də ondan sonrakı tarixi mərhələlərdə ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı olaraq Ermənistanın insanlıq əleyhinə hərbi cinayətləri ilə bağlı dəfələrlə beynəlxalq ictimaiyyətə müraciətlər etmişdir. Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyeva soydaşlarımızı müqəddəs torpaqlarımızın işğaldan azad olunduğu tarixi dövrün qürurlu vətəndaşları olaraq, həmin torpaqların, xüsusilə də təkrarsız və bənzərsiz Şuşa şəhərinin bərpası və cənnətə çevrilməsi kimi növbəti tarixi vəzifənin icrası naminə daha da səfərbər olmağa və bu taleyüklü prosesə konkret töhfələr verməyə dəvət etmişdir. Bu, zamanın şağırışıdır!

### Böyük zəhmətlərə söykənən önəmli təltiflər

Hər bir azərbaycanlı üçün fərəhlidir ki, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın fəaliyyəti beynəlxalq səviyyədə diqqətdədir. Onun gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Bunların sırasında "Heydər Əliyev" ordeni və Heydər Əliyev mükafatı (Azərbaycan Respublikası), "Şərəf legionu" ordeni (Fransa Respublikası), "Xidmətlərə görə" Böyük Komandor Xaçı Ordeni (Polşa Respublikası), "Hilal-e Pakistan" ali ordeni (Pakistan İslam Respublikası), "Sreten" ordeni (Serbiya Respublikası), "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni (Macarıstan Respublikası), "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni (Rusiya Federasiyası), UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, Krans Montana Forumunun qızıl medalı və "Prix de la Fondation" mükafatı, Avropa Olimpiya Komitəsinin Ali Ordeni, Küveyt Dövlətinin Fəxri diplomu, Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin "Ana, uşaq və ailənin sağlamlığının qorunması və möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə" mükafatı, "Qızıl ürək" beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı, Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin Fəxri doktoru adını, habelə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladığı fərmanla "Dostluq " ordenini göstərmək olar. (7) Misilsiz və fədakar zəhmətə verilən bu mükafatlar nə qədər dəyərli olsa da, hörmətli Mehriban xanım üçün ən qiymətli mükafat ümumxalq sevgisi və məhəbbətidir. Elə məhz bu səbəbdəndir ki, birinci xanım xalqa müraciətlərinin sonunu "Sizin Mehriban" ifadəsi ilə yekunlaşdırır. Bu ifadə Mehriban xanımın adı ilə harmoniyada yaşadığını, xalqı ilə səmimi ünsiyyətdə və ülviyyətdə olduğunu təsdiqləyir. Çoxşaxəli fəaliyyətində yorulmaq bilmir Mehriban xanım Əliyeva hər gördüyü işdən ilhamlanır, yeni bir layihənin icrası qarşıya qoyulur. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva demişdir: "İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir, fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir".

Prezident İlham Əliyev və onun ən yaxın məsləkdaşı olan Birinci vitse-prezident Mehriban Əliyevanın münaqişənin həlli yolları ilə bağlı mövqeyi dəyişməzdir. Həmin mövqeyə görə, Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın ermənilərinə respublikamızın hüdudları daxilində ən yüksək muxtariyyət statusu verilməsi yolu ilə həllini dəstəkləyir. Azərbaycan üçün bu çərçivədən kənarda hər hansı bir həll yolu qəbuledilməzdir. Münaqişənin həlli ilə bağlı bu yanaşma tərzi Azərbaycanın prinsipial mövqeyinin ifadəsidir.

Adı imzası olan Mehriban xanım Əliyevanın lokal, regional və beynəlxalq miqyaslı fəaliyyəti həm ölkə, həm də bir çox xarici dövlətlərin ali mükafataları ilə təltif olunmaqla yüksək qiymətləndirilmişdir. Bunların sırasında "Heydər Əliyev" ordeni və Heydər Əliyev mükafatı (Azərbaycan Respublikası), "Şərəf legionu" ordeni (Fransa Respublikası), "Xidmətlərə görə" Böyük Komandor Xaçı Ordeni (Polşa Respublikası), "Hilal-e Pakistan" ali ordeni (Pakistan İslam Respublikası), "Sreten" ordeni (Serbiya Respublikası), "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni (Macarıstan Respublikası), "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni (Rusiya Federasiyası), UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, Krans Montana Forumunun qızıl medalı və "Prix de la Fondation" mükafatı, Avropa Olimpiya Komitəsinin Ali Ordeni, Küveyt Dövlətinin Fəxri diplomu, Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin "Ana, uşaq və ailənin sağlamlığının qorunması və möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə" mükafatı, "Qızıl ürək" beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı, Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin Fəxri doktoru adını, habelə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladığı fərmanla "Dostluq " ordenini göstərmək olar. (7) Misilsiz və fədakar zəhmətə verilən bu mükafatlar nə qədər dəyərli olsa da, hörmətli Mehriban xanım üçün ən qiymətli mükafat ümumxalq sevgisi və məhəbbətidir. Elə məhz bu səbəbdəndir ki, birinci xanım xalqa müraciətlərinin sonunu "Sizin Mehriban" ifadəsi ilə yekunlaşdırır. Bu ifadə Mehriban xanımım adı ilə harmoniyada yaşadığını, xalqı ilə səmimi ünsiyyətdə və ülviyyətdə olduğunu təsdiqləyir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xalqa xidmət, millli və ümumbəşəri dəyərlərə hörmət nümunəsi olmaqla humanizm və vətənpərvərlik prinsiplərinə əsaslanır.

Bax, belə bir mühitdə dünyagörüşü formalaşan, milli-mədəni düşüncəsi zənginləşən Mehriban xanım Əliyeva öz səmərəli, çoxşaxəli, zəngin fəaliyyəti ilə Azərbaycanda qadın hərəkatını canlandıraraq, tarixdə yeni bir mərhələnin əsasını yaradıb. Bununla həm də Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası barədə beynəlxalq aləmə dövlətimizin bu sahədəki mövqeyni çatdırıb. Beləliklə, Mehriban xanım Əliyeva müxtəlif dövrlərdə müdrikliyi və qəhrəmanlığı ilə seçilən Azərbaycan qadınlarının şərəfli ənənələrini yaşadaraq, zənginləşdirib, mədəniyyətin, incəsənətin, elmin bir sıra sahələrində ilklərə imza ataraq, sivil işgüzarlığı, intellektual potensialı ilə beynəlxalq ictimaiyyətdə böyük nüfuz qazanıb.

Bu gün isə işğaldan azad edilmiş doğma torpaqlarımıza Prezident İlham Əliyevin səfərləri, həmin yerlərin bərpası ilə bağlı görüləcək işlər haqqında xoş xəbərləri də xalqımız Mehriban xanım Əliyevadan gözləyir. Mehriban xanım Əliyeva isə bu məlumatları böyük səmimiyyət və sevinclə xalqımızla bölüşərək dövlətimizin və xalqımızın bütövlüyünü daha da möhkəmləndirir. Bir sözlə, Mehriban xanım Əliyeva xalqının təhlükəsiz və xoşbəxt gələcəyi üçün həyata keçirdiyi bütün layihələr millətimizin uğur tarixinin bünövrəsini möhkəmləndirir. Bütün Azərbaycan xalqı inanır ki, masir Azərbaycan tarixinin banisi, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin ən yaxın silahdaşı, xalqımızın sevimlisi Mehriban xanım Əliyeva xeyriyyəçilik, insanseverlik, mərhəmət, Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, düşüncəsinə, əsrlərdən bəri formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətləri bundan sonra da davam etdirməyə çalışacaq. Çünki Mehriban xanım Əliyeva xalqımızın firavanlığı və qüdrətli dövlətimizin tərəqqisini naminə çoxşaxəli fəaliyyəti ilə Prezident İlham Əliyevin və ona inanan, böyük ümidlər bəsləyən insanların etimadını doğrultmağı bacarıb.

ANALİTİK

# Baş infeksionist: Payız-qış mövsümündə epidemioloji vəziyyət daha da ağırlaşa bilər



*Üçüncü dozanın vurulmasında məqsəd risk qruplarına daxil olan insanların daha yüksək etibarlıqla qorunmasını təmin etməkdir*

Hazırda bütün dünyada COVID-19 infeksiyası ilə əlaqədar vəziyyət çox gərgindir, ayrı-ayrı ölkələrdə yeni antirekordlar qeydə alınır. Virusun mutant ştammlarının - ”Alfa”, ”Beta”, ”Qamma”, ”Delta”nın ümumi bir xüsusiyyəti yoluxma qabiliyyətinin artmasıdır. Son vaxtlar ölkəmizdə də müşahidə olunan sanitar-epidemioloji vəziyyət ürəkaçan deyil. Statistik rəqəmlər göstərir ki, gündəlik yoluxma sayı 4 mini, ölüm sayı isə 30-u keçib. Bu isə sağlamlığımız üçün ciddi təhlükə yaradır. Yay fəslində karantin rejiminin yumşaldılması, o cümlədən rayonlararası gediş-gəlişin, şənlik mərasimlərinin keçirilməsinə icazə verilməsi, həmçinin restoranların, kafelərin, ictimai iaşə obyektlərinin, idman zallarının açılması bir tərəfdən əhalinin üzləşdiyi sosial və psixoloji gərginliyi aradan qaldırsa da, digər tərəfdən yoluxma hallarının sürətlənməsinə səbəb oldu.

**”İki sahil” sözügedən mövzu ilə bağlı Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazovla müsahibəsini təqdim edir:**

***- Təyyar müəllim, son günlərin statistikası hər kəsi narahat edir. Yoluxanların sayı sürətlə artırsa, deməli reanimasiyalardakı ağır xəstələrin sayı da artır. Bu isə ölüm hallarının artması təhlükəsini artırır. Epidemioloji vəziyyətin hazırkı səviyyəyə çatmasını nə ilə əlaqələndirirsiniz?***

- Epidemioloji durum mənfiyə doğrudur. Növbəti alovlanma fazasını yaşayırıq. Kəskin artım ölkədə infeksiyaya həssas insan kütləsinin çoxluq təşkil etməsinə səbəb isə uzun müddətdir ki, karantin məhdudiyyətlərinin əhəmiyyətli yumşaldılması, qoruyucu qaydalarına əhalinin müəyyən hissəsinin etinasızlığı, ”Delta” ştammı dövriyyəyə daxil olmasıdır. Əvvəlki günlərlə müqayisədə ölüm saylarında artım müşahidə edilir. Ümumilikdə isə yoluxma hallarının artması proporsional olaraq ağır xəstələrin sayının artması və son nəticədə ölüm hallarının sayının çoxalmasına səbəb olur. Təhlil onu deməyə əsas verir ki, nisbi ölüm göstəricisi artmamışdır.

***- Sentyabrın 1-dən ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində göstərilən xidmətlərdən yaşı 18-dən yuxarı olan şəxslər yalnız COVID-19 pasportu olduğu halda istifadə edə biləcəklər. Bunu necə qiymətləndirirsiniz?***

- Vaksinasiyanın artıq xeyli sayda insanı əhatə etməsi daha yumşaq, seçici məhdudiyyətlərə getmək imkanı yaratmışdır ki, bunun da idarəedici aləti məhz COVID pasportlarıdır. Hesab edilir ki, bu qaydaların tətbiqi, immunlaşmamış və yoluxma riski daha çox olan insanlarla təmasın mümkün qədər azaldılması, son nəticədə yoluxma tempinin aşağı düşməsinə xidmət edəcəkdir.

***- Ötən il payız-qış aylarında virusa yoluxma sayı kəskin şəkildə artdı. Necə düşünürsünüz bu hal və ya daha ağır epidemioloji vəziyyət bizi qarşıdan gələn payız -qış mövsümündə də gözləyirmi?***

- Zənnimcə, bəli. Yeni tədris ilində təlim-tədris müəssisələrinin fəaliyyətinin bərpa olunması, payız-qış mövsümündə insanların daha çox qapalı məkanlarda toplanması yoluxma sayının artımını dəstəkləyən faktorlardır. Bunları nəzərə alaraq, əhalini daha da diqqətli olmağa və vaksinasiyada daha aktiv iştirak etməyə çağırırıq.

***- Avqustun 9-dan etibarən peyvəndə qarşı əks göstərişi olanlara "əks göstəriş sertifikatı" nın verilməsinə başlanılıb. "Əks-göstəriş sertifikatı"nı almaq istəyənlər hansı mərhələlərdən keçməlidirlər?***

- ”Əks göstəriş sertifikatı”nın əldə edilməsi üçün vətəndaş ilkin olaraq ailə sağlamlıq mərkəzinə müraciət etməlidir. Burada şəxsin sağlamlıq durumu haqqında bütün məlumatlar toplanaraq müxtəlif ixtisaslı həkimlərin iştirakı ilə ilkin müzakirə olunur və vaksinasiyaya tutarlı əks göstəriş olduğu bütün məlumatlar Səhiyyə Nazirliyinin müvafiq komissiyasına təqdim olunur. Yalnız bu komissiyanın qeyd olunan sertifikatı vermək səlahiyyəti vardır. ”Əks-göstəriş sertifikatı” səbəblərindən asılı olaraq müddətsiz və ya müəyyən müddətə verilir. Komissiya öz işini artıq 9 avqust tarixindən başlayıb. Komissiya öz işində Səhiyyə Nazirliyinin hazırladığı vaksinlərin tətbiqinə göstərişlər və əks-göstərişləri özündə əks etdirən xüsusi təlimata əsaslanır. Bu cür əks-göstərişlərə yaşın 18-də aşağı olması, əvvəllər hər hansı bir vaksinə, o cümlədən COVID əleyhinə vaksinin birinci dozasına və ya bu vaksinin tərkibindəki hər hansı bir komponentə stasionar yardımı tələb etmiş ağır allergik, o cümlədən anafilaktik reaksiyanın olması, hamiləlik və südvermə dövrü, hazırda kəskin xəstəliklərin olması, ağır xroniki xəstəliklərin alovlanması dövrü və s. aiddir.

***- Təyyar müəllim, bu sertifikat hansı müddətə veriləcək?***

- Həmin sertifikatı almaq istəyən şəxslər yaşadığı ərazidə ailə həkiminə müraciət edir. Ailə Sağlamlıq mərkəzlərində həmin şəxsin tibbi kitabçası araşdırılır. Şəxsin şikayətləri dinlənilir. Anamnestik məlumatları araşdırılır, hazırda mövcud olan hər hansı bir xəstəliyə dair müayyən olunmuş müayinələrin nəticələrinə baxılır, müxtəlif müvafiq ixtisaslı həkimlərin iştirakı ilə məsləhətləşmələr aparılır. Əgər səbəblər əsaslıdırsa, onda şəxsin toplanmış bütün sənədləri Səhiyyə Nazirliyinin müvafiq komissiyasına təqdim olunur. Komissiya məsələyə baxaraq əks-göstərişlə bağlı yekun qərar qəbul edir. Çox az hallarda bu əks göstəriş sertifikatı ömürlük verilir, əksər hallarda belə sertifikat müvəqqəti, müəyyən vaxt çərçivəsində qüvvədə olmaqla verilir. Müddət bitdikdən sonra isə məsələ yenidən dəyərləndirilir. Qeyd edim ki, hamilə, süd verən qadınlara müvafiq müddətlər üçün əks göstəriş sertifikatları verilir.

***- Artıq xaric ölkələrdə peyvəndlənmə üçün müəyyənləşdirilən yaş həddi endirilib. Necə düşünürsünüz, ölkəmizdə də bu qayda tətbiq oluna bilərmi? Ümumiyyətlə, buna zərurət varmı?***

- Xarici ölkələrdə uşaqların və yeniyetmələrin vaksinasiyası məsələsi diqqətlə izlənilir və araşdırılır. Bu barədə zərurət olduqda və yetərli sübutlu məlumatlar toplandıqdan sonra beynəlxalq təcrübə də nəzərə alınaraq müvafiq qərarlar veriləbilər.

***- Səhiyyə Nazirliyi peyvəndin iki dozasını alanlara üçüncü - buster dozanı vurdurmağı da tövsiyə edir. Qeyd olunur ki, üçüncü doza qüvvətləndirici dozadır, yəni, orqanizmdə xəstəliyə qarşı yaranan anticisimləri artırır. Virusdan daha effektli qorunmaq üçün bunu zəruri sayırsınızmı?***

-3-cü dozanın vurulmasında məqsəd risk qruplarına daxil olan insanların daha yüksək etibarlıqla qorunmasını təmin etməkdir. Bu qruplara tibb işçiləri, yaşı 60-dan yuxarı şəxslər və müxtəlif ağır xroniki xəstəliyi olanlar daxildir. Təbii ki, bu, məcburi deyil, amma vətəndaşlara koronavirusa qarşı peyvəndin üçüncü dozasının vurulması dünya təcrübəsinə əsasən məqsədəuyğun hesab edilir. Üçüncü dozanın zəruriliyi barədə elmi məlumatlar toplandıqca daha çox ölkə bunu öz vətəndaşlarına tövsiyə edir.

***- Azərbaycan COVID - 19 əleyhinə vaksinasiyaya ilk başlayan ölkələrdən biridir. Təəssüf ki, ölkəmizdə peyvənd edilənlərin sayı pandemiyanın bitməsi üçün yetərli deyil. Hələ də əhali arasında peyvəndə mənfi münasibəti olanlar var. Vaksinin vacibliyinə inamı artırmaq üçün hansı tədbirlər görülməlidir?***

- Əhalidə vaksinə qarşı inamı artırmaq üçün KİV-də mütəxəssislər tərəfindən yetərli təbliğat aparılır. İctimaiyyətə təqdim olunan statistik rəqəmlər onu deməyə əsas verir ki, hazırda vaksin olunmayanların epidemiyası baş verməkdədir.Vaksin olunanlar arasında yoluxma hallarının minimal olması, bu insanların əsasən xəstəliyi yüngül keçirməsi, tam peyvəndlənmiş xəstələr arasında ölüm hallarına praktiki olaraq rast gəlinməməsi artıq yerli təcrübənin də gəldiyi nəticədir. Bu da vaksin olunmağa insanları motivasiya etməlidir. Beləliklə, aparılan təbliğat və qəbul olunan digər qərarlar son vaxtlar vaksinasiya üçün müraciət edənlərin sayının artmasına səbəb olub. Aparılan təbliğat işinin əsas leytmotivi ondan ibarətdir ki, pandemiyanın dayandırılmasının yeganə mümkün yolu əhalinin kütləvi vaksinasiyasıdır. Karantin məhdudiyyətləri epidemiyanın qarşısını almır, yoluxma sürətinin azalmasına səbəb olur.

Sonda, bir daha xatırladaq ki, peyvənd olunmaq bizim vətəndaş borcumuzdur. Peyvənd olunmaqla təkcə özümüzü deyil, ailəmizi, yaxınlarımızı, ətrafdakıları da qorumuş oluruq. Ona görə də yaşı 18-dən yuxarı olan hər kəsin peyvənd olunması zəruridir və vacibdir. İnsanlar bəzən vaksinin yan təsiri olacağından ehtiyat edib peyvənd vurdurmaqdan çəkinirlər. Peyvənd vurulması zamanı öldürülmüş virus orqanizmə düşür, heç bir xəstəlik, əlavə və yan təsirlər törətmir, orqanizmdə həmin virusa qarşı immunitet yaradır. Bu, bizi canlı virusdan, xəstəlikdən qoruyur. Anlamaq lazımdır ki, bizi yoluxduracaq canlı virusdan ehtiyat etmək lazımdır, peyvəndin tərkibində olan cansız virusdan yox.

***Yaqut Ağaşahqızı***

---

# Trolbaşı Əli Kərimli Novella Cəfəroğlunu təhqir etdirdi...

Xatırlayırsınızsa, bir neçə həftə öncə hüquq müdafiəçisi Novella Cəfəroğlu müsahibələrinin birində Leyla Yunusu ifşa etmişdi. Sitat: ”Leyla Yunus mənim üçün ölü insandır. O, Azərbaycanı heç zaman sevməyib, hər zaman nifaq salmaq istəyib. Ona görə də, o, mənim üçün hüquq müdafiəçisi ola bilməz”.

Bu fikirlər 08.08.2021-ci ildə deyilsə də, nədənsə, təxminən 3 həftə sonra Avropadakı ”təhqir maşınları”ndan olan cəbhəçi trol Məhəmməd Mirzəli Novella Cəfəroğlu haqqında status yazıb: ”Adamda gərək ləyaqət olsun. Görünən odur ki, bu boş boğaz Novella Cəfərovada o, yoxdur. Leyla Yunus haqqında ağzına gələni danışan bu ləçərin, əlinin kimin cibində olması hər kəsə məlumdur”.

Heç şübhə yoxdur ki, Novella Cəfəroğlunun təhqir olunması trolbaşı Əli Kərimlinin şəxsi sifarişidir. Çünki bunun üçün tutarlı səbəbləri var. Birincisi, qondarma ”siyasi məhbus” siyahısı Əli Kərimli üçün bir bazardır, Leyla Yunus da onun Avropadakı ”makleri”dir. Novella Cəfəroğlunun qondarma ”siyasi məhbus” siyahısı haqqında fikirləri həm Əli Kərimlini, həm də Leyla Yunusu Avropada etibarsızlaşdıra bilər. İkincisi, Novella Cəfəroğlu Müsavat Partiyasının üzvüdür ki, AXCP də əzəldən müsavatçılara nifrət edir.




Sifarişin Əli Kərimli tərəfindən verilməsini isbatlayan bir fakt da ondan ibarətdir ki, təhqir statusunu bəyənənlərin hər biri AXCP troludur. Hətta, Novella Cəfəroğlu haqqında ən təhqiramiz şərhi də AXCP GK üzvü Fuad Əhmədli yazıb. ”O görüşlərlə həyatlarını yola verə-verə gəlib kaftar yaşına çatıblar” - deyə Novella Cəfəroğlunun ünvanına təhqir yazıb.

Başqa bir maraqlı fakt isə ondan ibarətdir ki, Məhəmməd Mirzəlinin bir qadın hüquq müdafiəçisi haqqında təhqiramiz statusunu ilk bəyənənlərdən biri özünü ”hüquq müdafiəçisi” kimi təqdim edən Rüfət Səfərovdur. Düşünün ki, hüquq müdafiəçisi bir qadın, xüsusilə də hüquq müdafiəçisi olan şəxs haqqında təhqiramiz status yazılır, özünə hüquq müdafiəçisi deyən birisi də onu bəyənir. Paradoksdur, elə deyilmi?

Görünən odur ki, trolbaşı Əli Kərimli və qondarma dəstəsi hələ də təhqiri mübarizə metodu kimi görürlər. Bu cür fikir və yanaşma ilə bir daha Müsavat Partiyasına nifrət etdiklərini də isbatlayırlar. Nəhayət, özünə hüquq müdafiəçisi deyənin ”təhqir maşını”nın bir parçasına çevrilməsi də sübut edir ki, o, bir marionetkadır, yalnız siyasi sifariş yerinə yetirir...

***Ramil Vəlibəyov***

# Rus politoloq: ”Bu, faşist əlaltısı Qaregin Njde ideologiyasının Ermənistan parlamentində təcəssümüdür”

***Bir neçə gün əvvəl Ermənistan parlamentində hakim ”Vətəndaş sazişi” fraksiyasının nümayəndələri ilə müxalifətçi ”Hayastan” və ”Şərəf duyuram” fraksiyaları arasında dava-dalaş baş verdi. Bu ərəfədə, ”Şərəf duyuram” blokunun deputatı Anna Mkrtçyan ”Vətəndaş sazişi” fraksiyasından olan deputatları ”təslimçiliyin tərəfdarları” adlandırdı. Bu mübahisə əlbəyaxa döyüşlə müşayiət olundu və bundan sonra tərəflər təhlükəsizlik qüvvələri tərəfindən zaldan çıxarıldılar. Hər şey baş nazir Nikol Paşinyanın Milli Məclisə yeni bir hökumət proqramı təqdim etməsindən sonra oldu.***

*İqor Korotçenko: Ermənistanda baş verənləri görməyən amerikalılar və fransızlar hər zaman Azərbaycana demokratiya öyrətməyə hazırdırlar və indi Azərbaycanın Qarabağ bölgəsində separatçı varlığı canlandırmağa çalışırlar"*



Hakim fraksiyanın nümayəndəsi Hayk Sarkisyan bəyan etdi ki, ”bütün müdafiə nazirləri, hansı ki, pul və ya telefon zəngilə ordudan azad edirdilər, vətənə xəyanət edirlər”. Buna cavab olaraq Hayastan fraksiyasına rəhbərlik edən Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan ona şüşə butulka atdı. Bundan sonra şüşələr hər tərəfdən rəqiblərə tərəf uçmağa başladı. Amma hətta bu da kobud sözlərlə qarşılıqlı təhqirlərə son qoymadı və müxalifət və iqtidaryönlü deputatlar bir-birini təpikləyərək daha bir neçə dəfə dalaşdılar.

Rusiya politoloqu, ”Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko ”Moskva-Bakı” portalına Ermənistanda yaşanan hadisələrlə bağlı münasibət bildirib.

”Aydındır ki, bu, Ermənistandakı mövcud hakimiyyətin simasıdır, ”demokratiyanın” simasıdır ... Burada, necə deyərlər, nə çıxarmağa, nə də əlavə etməyə ehtiyac var. Problem Ermənistanın yeni parlamentinin deputatlarının siyasi mədəniyyətinin olmamasında, fərqli bir baxışa dözümsüzlüyündədir. Və ən əsası, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın siyasi rəqibinə necə su şüşəsi atdığını (belə öldürmək də olar) seyr etmək, əslində bu erməni parlamentinin divarında arasında döyüş təşkil etməkdir. Ermənistan-Azərbaycan sərhədində silahlı təxribatları təşkil etməyə kimin uyğun olduğu sualı dərhal öz-özünə yox olur. Səhnələr tamamilə çirkindir. Aydındır ki, Ermənistan ordusu keçmiş Ermənistan müdafiə nazirindən daha az təmkinlidir. Təbii ki, təxribatlar təşkil edir və atəş açırlar. Amma bunun üçün heç nə almayacaqlar. Necə ki, deputatlara öz rəqiblərinə şüşə atmaq heç nə vermir.

Ermənistan parlamentində baş verənlər biabırçı şeylərdir, bunun üçün deputat mandatından məhrum etmək lazımdır. Bütün bunlar Ermənistanın nüfuzuna son dərəcə mənfi təsir göstərir.

Paşinyanın Qarabağ nizamlanması ilə bağlı üçtərəfli bəyanat imzalamasından sonra Ermənistan parlamentinin keçmiş spikeri Ararat Mirzoyanın İrəvanın mərkəzində linç edilməsi səhnəsini xatırlayırıq. Adam möcüzəvi şəkildə sağ qaldı. Söhbət ondan gedir ki, indi Ermənistanın xarici işlər naziri vəzifəsini necə yerinə yetirəcək ... Çünki başından təpiklənəndən sonra...





1999-cu ildə Ermənistan parlamentinin divarları arasında Milli Məclisin spikeri Dəmirçyanı güllələyən terrorçuları xatırlayırıq. Ona görə də parlamentdəki davalar təəccüblü deyil. Bunlar erməni parlamentarizmi qarşısında faşist əlaltısı Qaregin Nijde ideologiyasının təcəssümünün ümumi əlamətləridir. Səbirsizlik, rəqibi zorla susdurmaq cəhdi. Bunlar parlament üsulları deyil, yarı terror üsullarıdır.





Nə iqtidar, nə də müxalifət, xüsusən də seçiciləri təmsil edənlər belə davranmamalıdır. Müxalifət iqtidara sakit bir həyat verməyəcəyinə söz verib, ona görə də iqtidara kölgə salmağa çalışır. Amma əslində, bunu özünə qarşı etmiş olur. Bu konstruktiv siyasi mübarizədirmi? Bu gülməlidir, kədərli olmasaydı. Deməli, müxalifət özünü eyni dərəcədə rüsvay edir.

Dünən parlamentdə Təhlükəsizlik Xidmətinin nümayəndələri deputatları geri çəkmək məcburiyyətində qaldılar. Bunlar qorxulu səhnələrdir. Xalq nümayəndələri özlərini bir növ küçə uşaqları kimi aparırlar. Yaxşı, rəqiblərinizlə razılaşmırsınızsa, fərqli bir fikir söyləyin, fikirlərinizin üstün olması üçün mübahisə edin. Və mübahisə yerinə fiziki şiddət tətbiq edildikdə, bu, yumşaq desək, utancdan başqa bir şeyə səbəb olmaz.



Ermənistanın niyə qeyri-konstruktiv davrandığını indi başa düşürük. Köklü səbəbləri başa düşürük - insanlar öz aralarında razılaşa bilmirlər. Necə ola bilər ki, xarici dünya ilə, qonşu ölkələrlə barışsınlar, məsuliyyətli və konstruktiv davransınlar və adekvat qərarlar versinlər ....

Beynəlxalq tərəfdaşlar bütün bunları görür. Makron buna bir şey deyəcəkmi? Xeyr, Paşinyanın saqqızından öpəcək. Qarşıda seçkilər var, Fransa ermənilərinin səsinə ehtiyacı var. Hamı parlamentdəki qəzəbə göz yumacaq. Ararat Mirzoyanın linç edilməsinə necə göz yumdular? O zaman ən azından bir insan haqları təşkilatı çıxış etdimi? Yox. Amma amerikalılar və fransızlar hər zaman Azərbaycana demokratiya öyrətməyə hazırdırlar və indi Azərbaycanın Qarabağ bölgəsində mövcud olan separatçı varlığı canlandırmağa çalışırlar. Burada ikili standartlar tətbiq olunur- onlara nə sərfəlidirsə, onu da edirlər. Ona görə də heç kim bunu görməyəcək, heç kim qınamayacaq. Praktiki bir plan, o cümlədən Rusiyada - erməni həmkarlarımızın nə qədər etibarlı, konstruktiv və danışıqlar apara biləcəyi ilə bağlı yalnız nəticələr çıxarmaq lazımdır.

Nikol Paşinyana qarşı fiziki zorakılıq çağırışlarını dəfələrlə eşitmişik. Həm Ermənistanda, həm də Rusiyadakı bəzi erməni nümayəndələri tərəfindən. Və heç kim onlar üçün heç bir məsuliyyət daşımadı, bu da təəccüblüdür. Cinayət işi yoxdur, heç nə. Belə səhnələrdən sonra Nikol Paşinyanın təhlükəsizliyini təmin etmək lazımdır. Parlamentə gələndə heç olmasa güllə keçirməyən jilet geyinsin.

Ona görə də Ermənistan hökumətinin yeni proqramı heç vaxt gəlməyəcək ”uzaqdakı gözəl” haqda boş ifadələrdir. Bütün bunları artıq keçmişik. Ermənistanın seçdiyi proqram nəinki yerinə yetməyəcək, hətta uğursuz olacaq.

Təəssüf ki, Qarabağ bloku ilə bağlı mənfi proqnozum da var. Nəticədə, Ermənistan tərəfi Azərbaycanla sərhədin açılmasına və delimitasiyasına hazır olduğuna dair bütün bu açıqlamaları Qarabağın statusu məsələsi ilə əlaqələndirəcək. Hazırda yenidən müəyyən prinsiplərdən danışmağa başlayıblar. Bütün bunları Qarabağın bədnam statusu ilə bir paketə bağlamaq üçün ATƏT-in Minsk qrupunu, xüsusən də amerikalıları və fransızları cəlb etməyə çalışacaqlar. Məhz belə edəcəklər. Və bu, sözün əsl mənasında, qanunsuz bir separatçı varlığın yenidən canlandırılmasıdır. Köhnə plastinkadır, hansı ki, 30 ildir eşidilmiş və görülmüşdür. Və bu ideyanı Ermənistan tərəfi nəqliyyat əlaqələrinin və delimitasiyanın qarşısını almağa hazır vəziyyətdə maskalayacaq”.

***Tərcümə - Elçin Bayramlı***

# ”Ermənilər üçün bir yol var, o da...”




**“Ermənistan heç vaxt beynəlxalq hüquqa və razılaşmalara əməl etməyib. Vətən müharibəsindən sonra bəzi ekspertlər düşünürdü ki, onlar nəticə çıxaracaqlar. Təəssüflər olsun ki, ermənilər heç bir nəticə çıxarmadılar. Bir sözlə, nə 10 noyabr razılaşmasına, nə 11 yanvar razılaşmasına əməl etmirlər”. Bunu S?A-ya açıqlamasında hərbi ekspert Emin Həsənli deyib.**

Hərbi ekspert deyir ki, görünür, ermənilər yenə başlarının üzərində dəmir yumruğu görmək istəyirlər: ”Hər dəfə də Azərbaycan ordusu onların cavabını verir. Amma bu sonsuza qədər belə davam edə bilməz. Ermənilər bura gəlmə xalqdır və iki əsirdir ki, burada məskunlaşıblar. Ermənilər bura köçürdüləndən sonra regionda müharibə, işğalçılıq, soyqırımı, terror, separatizm var. Bir sözlə, beynəlxalq hüququn ən ağır cinayətlərini törədiblər. Bircə yol qalır ki, erməniləri burdan köçürmək, başqa yol qalmır. Qarabağ məsələsi həll olunub, indi də sərhəddə təxribatlar törətməyə başlayıblar və bu, belə davam edə bilməz. Əgər Ermənistan bölgədə normal yaşamaq istəyirsə bütün iddialarından əl çəkməlidir. Bir sözlə, ya Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini tanımalı, təzminat verməli, terrorçuları təhvil verib, yaşamalıdır, ya da Ermənistandan burdan rədd olub getməlidir. Çünki bundan başqa yol yoxdur”.

***Gülyana***

# Əli Kərimli və Seymur Həzi "5-ci kolon" reallığında



İTTİHAM

***Ərəstun Oruclu: "Dezinformasiyaların yayılmasında məqsəd orduya etimadsızlıq, cəmiyyətdə inamsızlığın artırılması, vətəndaşların aldadılmasıdır***

ABŞ-da yaşayan politoloq Ərəstun Oruclu "facebook" hesabında "5-ci kolon"un fəaliyyətini təsnifatlandıran status paylaşıb. Qeyd edib ki, bütün hallarda "5-ci kolonun" fəaliyyəti bir mərkəzdən vahid plan və proqram üzrə koordinasiya olunur: "5-ci kolonun" bugünkü əsas fəaliyyət istiqamətlərindən biri də təxribat xarakterli informasiyaların və dezinformasiyaların yayılmasıdır. Məsələn, 44-günlük müharibənin guya Rusiya ilə razılaşdırılması barədə şayiələr və ya bu gün Azərbaycanla Rusiya arasında yaşanan gərginliyin "razılaşdırılmış oyun" olması iddiaları".

Ərəstun Oruclu yazıb ki, bu dezinformasiyaların yayılmasında məqsəd orduya etimadsızlıq, cəmiyyətdə inamsızlığın artırılması, vətəndaşların aldadılması və son nəticədə insanlarda özgüvən hissinin dağıdılması, xalqa, yəni ölkədə yaşayan insanlara onların heç nəyə qadir olmamasının aşılanması: "Son nəticədə isə cəmiyyətdə acizlik hissinin və təslimçilik əhvalının yaradılması".

Azərbaycanda da sosial şəbəkələr üzərindən bu təbliğat ancaq AXCP və Milli (olmayan) Şura aparmaqdadır. Hər gün guya 44 günlük Vətən müharibəsinin Rusiya ilə razılaşdırılması barədə şayələr yayırlar, böhtanlar yazırlar. Elə Ərəstun Oruclu əslində bu fikirləri ilə birbaşa Əli Kərimlini, müavini Seymur Həzini və başqalarını ifşa edib, onların "5-ci kolon" olduğunu sübut edib. Məsələn, Əli Kərimlinin müsahibəsindən belə deyib: "Ona görə mən o gün sevinirdim ki, açığı ora gedib çıxacağını gözləmirdim. Mən bilirdim axı, ortalıqda danışılmış işlər var. Hər gün bu dayandırıla bilər... Müəyyən bir razılaşma var idi. Amma Rusiyanın razılığı da var idi bu işdə... Şuşaya gedib çıxdıq. Etiraf edim ki, mən gözləmirdim. Mən fikirləşirdim ki, Lavrov planı işləyəcək, həmin o beş rayonla, sülhməramlılar qayıdacaq... O zaman mən bilirdim belə bir razılaşma var ki, Lavrov planı əsasında rus qoşunları gəlsinlər bölgəyə...".

Əli Kərimlinin müavini Seymur Həzi isə son statuslarının birində belə bir cümlə işlədib: "Rusiya ilə gərginliyin bir danışıqlı döyüş olduğunu".

Gördüyünüz kimi, həm Əli Kərimli, həm də müavini Seymur Həzi 44 günlük Vətən müharibəsinin Rusiya ilə razılaşdırılması barədə şayələr yazırlar, danışırlar. Bu da Ərəstun Oruclunun yazısı təbirincə həm Əli Kərimlinin, həm də müavini Seymur Həzinin "5-ci kolon" olduğunu sübut edir.

Onu da qeyd edək ki, hazırda da Əli Kərimlinin və trol dəstəsinin "Azərbaycan-Rusiya münasibətlərində razılaşdırılmış gərginlik" tezisini tirajlamaqla bir daha "5-ci kolon" olduqlarını isbatlamış olurlar.

***Rövşən***

# "Xaricdən olan bəzi qüvvələr bu şəxslərə böyük maliyyə ayırır"




"Azərbaycanın inkişafı dünyanın böyük gücləri tərəfindən həmişə qısqanclıq hissi ilə yanaşdığının şahidi olmuşuq. Eyni zamanda, ölkə daxilində olan bəzi qüvvələr var ki, onlar da Azərbacanın uğurlarına kölgə salmaq üçün əllərindən gələni edirlər. Əgər bir ölkənin vətəndaşı öz ölkəsi haqqında xarici əleyhdarlarına yalanlara söykənən donoslar verirsə, bunun bir adı var, o da xəyanətdir. İstər Azərbaycan, istərsə də hansısa bir ölkənin vətəndaşı olsun, bunun başqa adı yoxdur". "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

QHT rəhbərinin sözlərinə görə, müxalifət düşərgəsini təmsil edən şəxslər üçün birinci dərəcəli məsələ öz cibləridir, mənafeləridir, maliyyə vəsaitidir: "Xaricdə olan bəzi qüvvələr də bu kimi şəxslərə kifayət qədər maliyyə ayırırlar və onlar da bu maliyyə vəsaiti əldə etmək üçün anormal addımlar atırlar. Xaricdə olan bəzi qüvvələr də öz məkrli planlarını həyata keçirmək üçün daxildə olan bu qüvvələrdən istifadə etməyə çalışır. Bu gün həm xaricdə olan bəzi qüvvələr, həm də daxildə olan bu qüvvələrin istəyi ölkəmizin uğurlarına kölgə salmaqdır. Amma onların nə istəməsindən və etməsindən asılı olmayaraq heç vaxt Azərbaycanla bağlı məkrli planları baş tutmayacaq".

***Gülyana***

# Hamiləlikdə böyrək xəstəlikləri

**Ginekoloq açıqladı**

"Hamilələrdə ürək-damar xəstəliklərindən sonra ikinci yerdə böyrək xəstəlikləri durur. Hamiləlik dönəmində böyrəklərdə, sidik sistemində və qan dövranında fizioloji dəyişikliklər baş verir. Hamiləlikdə böyrək patologiyalarını öncədən aşkarlamaq üçün müntəzəm olaraq sidiyin təhlili və arterial təzyiqə nəzarət lazımdır". Bu sözləri S?A-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib.



Onun sözlərinə görə, ən çox hamilələrdə simptomsuz bakteriuriya, sistit və pielonefrit rast gəlinir: "Simptomsuz bakteriuriya ancaq sidiyin laborator təhlili zamanı aşkar olunur və bu zaman hamilədə heç bir simptom olmur. Bakteriuriyanın səbəbi kimi pielonefriti düşünmək lazımdır və bunu təsdiq etmək üçün növbəti müayinələr vacibdir".

"Pielonefrit böyrək ləyənlərinin iltihabıdır. Hamiləliyin sonlanmasına,vaxtından əvvəl doğuşa, hestoza(normal gedən hamiləliyin ağırlaşması), hipotrofiyaya, dölün bətndaxili infeksiyalaşmasına gətirib çıxara bilən təhlükəli haldır. Çox vaxt hamiləliyin ikinci yarısında əmələ gəlir. Hamiləlikdə inkişaf edən pielonefrit hestasion pielonefrit və ya hamiləlik pielonefriti adlanır. Əsasən bağırsaq çöpləri, klebsiella və maya göbələyi tərəfindən yaranır. İnfeksiya böyrəyə qalxan yolla düz bağırsaqdan, uşaqlıq yolundan və ya xroniki iltihab ocaqlarından qanla keçə bilər. Əsas simptomları qəfil temperaturun yüksəlməsi, titrəmə, ümumi zəiflik, halsızlıq, baş və bel ağrılarıdır. Eləcə də hamiləni ağrılı sidiyə getmə narahat edir. Pielonefritə şübhə olarsa, hamiləni hospitalizasiya etmək və azı 4-6 həftə müalicə etmək lazımdır".

"Sistit-sidik kisəsinin selikli qişasının iltihabıdır. Əlamətləri tez-tez sidiyə getmək və prosesin sonunun ağrılı olması, göynəmə hissi, qasıqüstü nahiyədə ağrı, subfebril temperaturdur. Xəstəlik adətən 7-10 gün davam edir. Çox rast gələnən hallardandır ki, kəskin sistit xroniki sistitə və ya pielonefritə keçir. Ona görə ilk simptomların aşkar olunduğu vaxtdan müalicəyə keçmək vacibdir".

***Ayşən Vəli***

# "Nar" şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinə dəstək oldu

"Nar" "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirdiyi "YAŞAT" düşərgəsinə dəstək oldu. Uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər və qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, konsultasiyalar və konsert proqramı keçirilib. İştirakçılara "Nar" tərəfindən müxtəlif hədiyyələr təqdim edilib.

Düşərgə boyunca uşaqlar sığortalanmış olurlar, eləcə də davamlı olaraq həkim nəzarəti və psixoloqlar tərəfindən müşayiət olunurlar. Psixoloqlar tərəfindən fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdirilir və Fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunurlar.

Müxtəlif şirkətlərin dəstəyi ilə 2021-ci ilin 12 iyul tarixindən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, müharibədən sonra şəhid ailələrinə və qazilərə xüsusi diqqətin göstərilməsi "Nar"ın sosial layihələrinin əsas istiqamətlərindən biridir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 92%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.






***Son 15 ildə Azərbaycan özünün tarixində görünməmiş böyük inkişaf mərhələsinə qədəm qoyub. Yeni inkişaf erasının başlıca istiqamətləri respublikamızın bütün mövcud potensialdan səmərəli istifadə etməklə regiondakı mövqeyini əhəmiyyətli şəkildə dəyişdirib və möhkəmləndirib. İndi ölkəmizin sürətli iqtisadi inkişafı sosial sferada çoxşaxəli islahatlar aparmağa, dünya təcrübəsindən uğurla çıxmış təkmil mexanizmləri tətbiq etməyə imkan verir.***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.***



*"Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə həyata keçirilə bilməz. Bu, onu göstərir ki, Azərbaycan bölgənin aparıcı ölkəsinə çevrilib" - İlham Əliyev*

# Azərbaycanı regionun siyasi və iqtisadi güc mərkəzinə çevirən siyasət



İqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər makroiqtisadi sabitliyi təmin etməklə bərabər əhalinin sosial müdafiəsini gücləndirmək üçün də möhkəm zəmin yaradıb.

Məhz son 15-20 ildə həyata keçirilmiş iqtisadi islahatlar ölkəmizin ardıcıl şəkildə baş verən qlobal böhranlar qarşısında dayanıqlığını təmin etdi. Son 2 ildəki pandemiya dövründə isə müəyyən bir müddət iqtisdiyyatın bəzi sahələrində iş dayandı, iqtisadi aktivlik azaldı, lakin vaxtında formalaşdırılmış iqtisadi maliyyə bazası ciddi problem yaranmasına imkan vermədi.

Nəinki bir çox ölkələrdə olduğu kimi iqtisadi tənəzzül baş vermədi, əksinə, iqtisadi inkişaf davam etdi. İqtisadi inkişafa stimul verən proseslərdən ən əsası, həyata keçirilən düzgün islahatların nəticəsidir. Ölkə iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurulub. Özəl sektorun inkişafı da məhz bunun nəticəsində inkişaf edir. Nəticədə, özəl sektorun payı ümumi daxili məhsulda getdikcə artır.

Həm dövlət büdcəsində, həm də ixracda qeyri-neft sektorunun, eləcə də özəl sektorun payı da getdikcə artır. Nəzərə alsaq ki son illərdə qlobal böhranlar və pandemiya fonunda neftin qiyməti kəskin ucuzlaşmışdı, buna baxmayaraq iqtisadiyyatımız axsamadı, qeyri-neft sektorundakı artım itkilərin yerini kompensasiya edə bildi.

Hazırkı şəraitdə neftin dünya qiymətinin normal həddə - 70 dollar ətrafında stabilləşməsi nəticəsində büdcədə nəzərdə tutulandan artıq valyuta ehtiyatlarının respublikamıza daxil olması fonunda ölkəmizin maliyyə imklanlarını artırır, Neft Fondunun gəlirlərini çoxaldır və sosial layihələrə ayrılan vəsaitlərin həcmini yüksəldir.

Dayanıqlı iqtisadi artımın təmin olunmasına dəstək verən siyasətin dərinləşdirilməsi, inflyasiyanın aşağı salınması, qeyri-neft sektorunun aparıcı sahəyə çevrilməsi, məşğulluq səviyyəsinin yüksəlməsi, çevik makroiqtisadi idarəetmənin həyata keçirilməsi, əhalinin rifah halının yaxşılaşması inkişaf strategiyasının ən başlıca istiqamətlərindəndir. Bir sözlə, ölkənin bütün bölgələrində, kənd və qəsəbələrdə bu məqsədlərin reallaşması nəticəsində tamamilə yeni mənzərə yaranıb.

Ötən il müzəffər Ali Baş Komandanımızın başçılığı altında qəhrəman ordumuz tərəfindən ölkəmizin və xalqımızın ən böyük probleminin həll edilməsi- Qarabağın 30 illik düşmən işğalından azad edilməsi ümumi iqtisadi inkişafımız üçün də böyük üfüqlər açdı.

Qarabağ bölgəsində böyük quruculuq və bərpa işləri başlayır. Burada yeni şəhərlər, kəndlər salınır, istehsal müəssisələri yaradılır, bölgənin aqrar və turizm imkanlarından, faydalı qazıntı resurslarından səmərləli istifadə üçün proqramlar hazırlanır. Bu işlər həm də ölkəmizə xarici sərmayənin artması ilə müşayiət olunur. Bu da son nəticədə iqtisadi artımı sürətləndirəcək.

Ələtdə Azad İqtisadi Zonanın yaradılması, Zəngəzur dəhlizinin açılması isə ölkəmizi həm beynəlxalq nəqliyyat tranzit qovşağına, həm regional iqtisadi əməkdaşlığın baza məkanına çevirəcək.

Sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətində davamlı və sabit inkişaf edən iqtisadi sistemin formalaşması məqsədi dayanır. Bu siyasət isə neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasi və sosial-iqtisadi modernləşməyə əsaslanan inkişaf strategiyası hazırda öz bəhrəsini verməkdədir. Bu siyasət nəticəsində, özəl sektorun inkişafına mane olan bürokratik əngəllər aradan qaldırılıb, sahibkarlara dövlət qayğısı artırılıb, özünüməşğulluq proqramları, aqrar sektora subsidiyalar, sahibkarlığa güzəştli kreditlər və sair yardımlar ölkədə istehsalı artırıb, məşğulluq problemini aradan qaldırıb.

Yeni stretaji inkişaf proqramının bəzi prioritetləri bəllidir. Sürətli iqtisadi inkişafın və artan maliyyə imkanlarının fonunda qeyri-neft sektorunun inkişaf etdirilməsi, infrastrukturun daha da möhkəmləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması və təbii ki, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi prioritet məsələ kimi önə çəkiləcək. Dövlət qarşıya qoyduğu bütün məsələlərin həllində qətiyyətlidir və xalqın iradəsinə güvənir.

Neft strategiyasını hərtərəfli inkişaf kursuna çevirən Azərbaycanın təcrübəsi bu mənada yeni inkişaf etməkdə olan dövlətlərə nümunə göstərilir. Beynəlxalq maliyyə və konsaltinq təşkilatları inkişafın Azərbaycan modelinin formalaşdığını dəfələrlə bəyan etmişlər. Onların mülahizələrinə görə dünya iqtisadiyyatında indiyə qədər mövcud olan çoxsaylı modellərə biri də əlavə olunmuşdur. Bu model Azərbaycanın timsalında bərqərar olmuş və yaxın gələcəkdə inkişaf etməkdə olan ölkələr üçün model kimi tətbiq oluna bilər.

Siyasətin əsas məqsədini iqtisadiyyatın inkişafı ilə bağlayan dövlətimizin başçısı İlham Əliyev xüsusi olaraq vurğulayır: "Biz bütün imkanlarımızı səfərbər etməliyik ki, güclü dövlət yaradaq. Çünki iqtisadiyyat hər bir dövlətin təməl sistemidir. Güclü iqtisadiyyatı olan ölkə isə siyasi cəhətdən müstəqil olur və öz maraqlarını daha da uğurla müdafiə edə bilir... Azərbaycanın uğurlu xarici siyasəti bizim həm siyasi, həm iqtisadi, həm enerji, həm də nəqliyyat sahələrində qəbul olunur və bu təşəbbüslər Azərbaycanı daha da gücləndirir və güclü mərkəzə çevirir. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Azərbaycanın iştirakı olmadan bu bölgədə heç bir layihə həyata keçirilə bilməz. Bu, onu göstərir ki, Azərbaycan bölgənin aparıcı ölkəsinə çevrilib".

Son bir neçə ildə ölkəmizdə əldə olunan sürətli inkişaf tempi, güclü ordu quruculuğu, sosial siyasətin yüksələn xətlə inkişafı və sair bu kimi amillər onu göstərir ki, Azərbaycan Avropa ilə Asiyanın arasında yeni bir güc mərkəzi kimi ortaya çıxıb və bir çox məqamlarda həlledici söz sahibidir. İstər iqtisadi, istərsə də digər sahələrdə Azərbaycan bir mərkəzə çevrilmək üzrədir- Avrasiyanın yeni mədəni, siyasi, iqtisadi mərkəzinə.

İlham Əliyev iti zəkası, vaxtında lazımi və zəruri tədbirlər görmək bacarığı özləmizə beynəlxalq arenada öz nüfuzunu artıraraq böyük rəğbət qazandırmışdır. Qeyd olunanlar bir daha göstərir ki, Prezident İlham Əliyevin dövlətçilik strategiyası Azərbaycanı yeni uğurlara və yeni zirvələrə daşıyır.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

28 avqust

## Kriştiano Ronaldo "Mançester Yunayted"ə keçdi!




"Mançester Yunayted" Yuventus"un futbolçusu Kriştiano Ronaldonun transferini rəsmən açıqlayıb. SİA klubun saytına istinadən xəbər verir ki, 36 yaşlı hücumçu ilə transferlər bağlı razılıq əldə olunduğu bildirilib. Portuqaliyalı futbolçunun yalnız tibbi müayinədən keçməsi, viza alması və "Mançester Yunayted"lə şəxsi müqaviləsinin detallarını razılaşdırması lazımdır.

Qeyd edək ki, Ronaldonun İngiltərə təmsilçisi ilə 2 illik müqavilə imzalayacağı gözlənilir. Kriştiano 2003-2009 -cu illərdə "Yunayted" də çıxış edib.

## "Fənərbaxça"da hücumçu axtarışı davam edir

*"Fənərbaxça" hücumçu transferində səhv etməmək üçün çox çalışır. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, bir çox namizədləri müəyyənləşdirən klub bu oyunçularla bağlı ətraflı araşdırma aparırlar. Bu adlardan biri Felipe Saysedodu. Ekvador Milli Komandasından Enner Valencia ilə dost olan hücumçu, bu mövsüm "Lazio" nun heyətində yer almayıb.*

"Cenova", 32 yaşlı hücumçu Saysedo ya illik 2,2 milyon avro maaş təklif edən ilk komanda oldu. Ancaq ulduz oyunçu bu təklifi rədd etdi. "Fənərbaxça" futbolçu ilə əlaqə saxlayaraq transfer şərtlərini soruşub. Rəhbərliyin "Lazio"dan həm də komanda yoldaşı Muriçdən təcrübəli hücumçu ilə bağlı müsbət arayışlar aldığı öyrənilib.

"Fənərbaxça"nın radarında olan başqa bir hücumçu Keita Baldedir. Seneqallı ulduzun ən böyük namizədi "Valensiya" idi. Ancaq İspaniya komandası, hücumçu transferində ilk hədəfi Markos Andrei 8 milyon avroya "Valladolid"dən transfer etməyi bacarıb. 26 yaşlı futbolçu ilə Premyer Liqa klubu "Uotford" da maraqlanır. Ancaq Fənərbaxça qədər ciddi deyil və hələ də təşəbbüs göstərməyib. "Fənərbaxça" başqa bir klub oyunçuya təklif verməmiş bu transferi tez bir zamanda tamamlaya bilər.

**Ziya Hikmətoğlu**

## Avroliqada qruplar bəlli olub




Avropa Liqasında qrup mərhələsinin püşkü atılıb. SİA-nın UEFA-nın rəsmi saytına istinadən verdiyi məlumata görə Türkiyənin İstanbul şəhərində təşkil olunan tədbirə Bakı vaxtı ilə saat 14:00-da start verilib.

Püşkatma ümumilikdə 32 komandanın iştirakı ilə keçirilib. Onlardan 12-si qrup mərhələsinə avtomatik qatılanlar, 10-u Avropa Liqasının pley-off mərhələsinin qalibləri, 10-u Çempionlar Liqasının pley-off və 3-cü təsnifat mərhələsində uduzanlardan ibarətdir. Komandalar 8 bərabər qrupa bölünüblər. Türkiyə təmsilçilərindən "Fənərbaxça" D qrupunda "Olimpiakos" (Yunanıstan), "Ayntraxt" (Almaniya) və "Antverpen"ə (Belçika) rəqib olub. "Qalatasaray" isə E qrupunda "Latsio" (İtaliya), "Lokomotiv" (Moskva, Rusiya) və "Olimpik"lə (Marsel, Fransa) mübarizə aparacaq.

Azərbaycan yığmasının futbolçusu Mahir Emrelinin çıxış etdiyi Polşa "Legiya"sının da rəqibləri müəyyənləşib. Hücumçumuzun komandası C qrupunda "Napoli" (İtaliya), "Lester Siti" (İngiltərə) və "Spartak"a (Moskva, Rusiya) qarşı mübarizə aparacaq.

## Mini şortda poz verdi

***Bodrum tətilindən sonra İstanbula qayıdan türk müğənni Lerzan Mutlu sosial media səhifəsində paylaşdığı paylaşımlarla diqqət çəkib.***

SİA xarici mətbuata istinadən xəbər verir ki, bu yaxınlarda paylaşdığı mini şortlu fotosu ilə Mutlu az qala gənc qızlara daş atacaq.



Ötən ay Bodrum tətilindən bikinili yazıları ilə diqqət çəkən müğənni, indi mini şortlu bir çərçivə nəşr etdirib. Onun bu fotoları bir neçə dəqiqə ərzində minlərlə bəyənmə alıb.

O, aylaşdığı fotoşəkilə belə bir qeyd əlavə edib: "Bəzən bir ağaca söykənməlisiniz, insandan daha güclü bir ağac, bütün küləklərə, yağışlara, fırtınalara, qar və qışa baxmayaraq dik durmağı öyrədir və möhkəm dayanır".

**Ayşən Vəli**

## 12 yaşda olanlara...




Avstraliya Vaksinasiya Texniki Məsləhət Qrupu (ATAGI), ölkənin dərman tənzimləyicisi yeni qərar qəbul edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu qərar Terapevtik Məhsullar İdarəsi (TGA) tərəfindən təsdiqlənmiş Pfizer/BioNTech tərəfindən istehsal edilən yeni tip koronavirus (Covid-19) peyvəndinin 12 yaşdakı bütün avstraliyalıların istifadəsinə buraxılmasını təsdiqləyib.

**Turqay Musayev**

## Türkiyəli tennisçidən tarixi qələbə

Mövsümün sonuncu "Grand Slam" tennis turnirində USA Open turnirində əsas masada qalmaq üçün mübarizə aparan türkiyəli tennisçi Cem İlkel, seçmə mərhələdə final mərhələsinə yüksəlib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, seçmə mərhələnin ikinci turunda 26 yaşlı Cem İlkel karyerasında 7 ATP titulu olan keçmiş dünya 7 nömrəli və İspaniyalı Fernando Verdasko ilə qarşılaşıb. Ümumilikdə 2 saat 24 dəqiqə davam edən matçda rəqibini 4-6, 6-3 və 6-4 setlərində 2-1 məğlub edən türkiyəli tennisçi əsas masaya bir addım yaxınlaşıb. Cem İlkel final mərhələsində dünyanın 192 nömrəli çexiyalı raketçisi Jiri Lehecka ilə qarşılaşacaq.



**Ziya Hikmətoğlu**

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600